QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 116 (5347) 5 iyul 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır

*Prezident İlham Əliyev: “Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür”*



Səh 2


**Aqrar islahatlarda yeniliklər**



3

**Əli Əhmədov: “Biz qürur duyuruq ki, bu qısa müddət ərzində yeni iqtisadi və sosial inkişaf modelini yaratmışıq”**



4

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib**



8

**Aleksandr Proxanov: Bakı - həyat ağacı**



6

**Polad Bülbüloğlu: “Ölkələrimiz arasında mədəni əlaqələr heç vaxt qırılmayıb”**



5

**“Azərbaycan torpaqlarını işğal etdiyinə görə Pakistan bu günədək Ermənistanı bir dövlət kimi tanımayıb”**



4

7

**Müasir Azərbaycanın diaspor təşkilatları ilə qurduğu əlaqələr yeni mərhələdə**



11

**Ermənistanın düşünməyə vaxtı qalmayıb**



16

**Formula-1 Azərbaycan Qran-Prisini 71 min 541 tamaşaçı izləyib**



# Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır

## *Prezident İlham Əliyev: "Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür"*

***Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səyi nəticəsində sürətlə inkişaf edir və möhkəmlənir. Birbaşa Prezident İlham Əliyevin tapşırığına əsasən, silahlı qüvvələrin bütün qoşun növlərində həyata keçirilən genişmiqyaslı hərbi islahatlar ordunun döyüş qabiliyyətini, hərbi kadr potensialını artırıb, hərbi qulluqçuların sosial-məişət şəraitini yaxşılaşdırıb. İslahatlar döyüş hazırlığı, hərbi təhsil, tərbiyəvi iş, hərbi tibb və digər sahələri əhatə edir. Görülən işlər silahlı qüvvələri aparıcı dövlətlərin orduları səviyyəsinə qaldırıb.***



Müasir texnologiyaların tətbiqi ilə qoşunlarda yaradılan avtomatlaşdırılmış komanda-idarəetmə məntəqələri silahlı qüvvələrin bütün qoşun növlərinin dayanıqlı, operativ, gizli və fasiləsiz idarə olunması-na imkan yaradıb. Hərbi hissələrin, əsasən də, cəbhə xəttindəki bölmələrin yeni növ silah, döyüş texnikası və digər hərbi vasitələrlə təchiz edilməsi onların əməliyyat imkanlarını, manevr qabiliyyətini artıraraq, düşmən üzərindəki üstünlüyü təmin edib.






Raket və artilleriya qoşunlarının arsenalında olan müasir raket kompleksləri və atəşi idarəetmə sistemləri qoşunların döyüş qabiliyyətini xeyli yüksəldərək, düşmənin canlı qüvvəsini, döyüş texnikasını və hərbi infrastrukturunu məhv etmək imkanlarını genişləndirib.

Dağıdıcı gücə və uzaq məsafədən yüksək dəqiqliklə zərbə endirmək xüsusiyyətinə malik sistemlər raket və artilleriya qoşunlarının istənilən vaxt effektiv tətbiqini mümkün edir. Hərbi-hava qüvvələrinin döyüş tətbiqi və uçuş imkanlarının təkmilləşdirilməsi, aviabazaların infrastrukturunun və aerodrom avadanlıqlarının yenilənməsi üzrə layihələr həyata keçirilir. Zenit-raket, radiotexniki birləşmə və hissələrin müasir hava hücumundan müdafiə sistemləri ilə təchizatı hava məkanımızın etibarlı müdafiəsini, düşmənin təhlükəli aerodinamik hədəflərinin vaxtında aşkarlanaraq məhv edilməsini təmin edir. Düşmən haqqında tam və dəqiq məlumatın əldə edilməsi, onun fəaliyyətinin daim nəzarətdə saxlanılması və izlənilməsi məqsədilə kəşfiyyat bölmələrinin lazımi vasitələrlə təchizatı həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar nəticəsində hərbi xərclərin artması ordumuzun zirehli texnikasının, aviasiya vasitələrinin və digər hərbi təyinatlı məhsulların daim yenilənməsinə və təkmilləşdirilməsinə şərait yaradıb. Elmin son nailiyyətləri nəzərə alınmaqla və yeni texnoloji elementlərin tətbiqi ilə dünyanın aparıcı silah istehsalçıları tərəfindən hazırlanan yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik döyüş texnikası, silah-sursat və digər hərbi vasitələrin silahlı qüvvələrimizin təchizatına daxil edilməsi davam edir.

Hərbi sənayemizin inkişafı ordumuzun silah arsenalının yerli istehsal olan müasir silahlar və digər hərbi təyinatlı məhsullarla gücləndirilməsinə imkan verir. Ölkəmizdə və digər dövlətlərlə əməkdaşlıq şəraitində hazırlanan yüksək dağıdıcı gücə, dəqiqliyə malik döyüş vasitələri və sursatları qoşunlarımızın düşmən üzərində üstünlüyünü tam təmin edir.

Bununla yanaşı, güclü və müasir tələblərə cavab verən silahlı qüvvələrin inkişafında hərbi-təhsil sisteminin müstəsna əhəmiyyəti var. Bu sahədə aparılan işlər qoşunlarda yüksək döyüş hazırlığının təmin edilməsinə, hərbi qulluqçuların ixtisas hazırlığının, bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib. Yeni təlim mərkəzlərinin, o cümlədən, dağ hazırlığı poliqonlarının istifadəyə verilməsi şəxsi heyətin döyüş vəziyyətinə tam uyğunlaşdırılmış şəraitdə peşəkar hazırlığının yüksəldilməsinə hesablanıb.

Silahlı Qüvvələrin hazırlıq planına uyğun olaraq, bütün qoşun növlərinin cəlb olunması ilə müxtəlif səviyyələrdə gecə və gündüz genişmiqyaslı döyüş atışlı təlimlər keçirilir. Bu təlimlər birlik və birləşmələrin idarə edilməsini, qarşılıqlı fəaliyyətini, əməliyyat imkanlarını və döyüş qabiliyyətini artırıb.

Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində son illər hərbi qulluqçular və onların ailə üzvləri müasir standartlara cavab verən mindən çox xidməti və daimi mənzillə təmin olunub. Qısa müddətdə, xüsusən, cəbhəboyu zonada 20-dən çox yeni hərbi şəhərcik, əsgər yataqxanaları, yeməkxanalar, hamam-camaşırxana kompleksləri, digər xidməti və inzibati binalar inşa edilib. Bu işlər bu gün də davam etdirilir. Göründüyü kimi, bu gün ordumuzun döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı yüksəlib, təminat və təchizatı xeyli təkmilləşib. Məhz bu faktorlar da əminlik yaradır ki, silahlı qüvvələrimiz dövlətimizin və xalqımızın etimadını doğruldaraq, qarşıda duran ən əsas vəzifəni - torpaqlarımızı düşməndən azad etməyə və ərazi bütövlüyümüzü təmin etməyə qadirdir. Prezident İlham Əliyevin sözlərilə desək, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır: "Bunu həm biz deyirik, həm Azərbaycan ictimaiyyəti bunu görür və bilir. Aparıcı reytinq agentlikləri də bunu təsdiqləyir. Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır. Ordu quruculuğu daim diqqət mərkəzindədir. Büdcəmizin ən böyük xərcləri hərbi xərclərdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür. Həm yerli istehsal, həm də xaricdən gətirilən hərbi texnika hesabına biz bu gün təminat baxımından ən yüksək səviyyədəyik. Ən müasir silahlar, texnika, döyüş aparatları, təyyarələr, vertolyotlar, pilotsuz döyüş aparatları, artilleriya qurğuları, zirehli maşınlar, tanklar, toplar, hava hücumuna qarşı ən müasir qurğular, yəni bütün bunlar bizim hərbi gücümüzü böyük dərəcədə artırmışdır. Növbəti illərdə də bu istiqamətdə ardıcıl iş aparılacaq".

***"Səs" Analitik Qrupu***

# Aqrar islahatlarda yeniliklər

## *Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan nailiyyətləri sübut edir*

***Son illər Azərbaycanda neft gəlirlərindən səmərəli istifadə edilməsi qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur. İqtisadiyyatın şaxələndirilməsi, bütün digər sahələr kimi, aqrar bölmənin də inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.***

Dövlət başçısı kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədilə 2015-ci ili Azərbaycanda "Kənd təsərrüfatı ili" elan etmişdir. Hazırda Azərbaycan əksər kənd təsərrüfatı məhsulları, o cümlədən, taxıla olan tələbatı, əsasən, yerli istehsal hesabına ödəyir. Bu da ərzaq təhlükəsizliyi baxımından olduqca mühüm məsələdir. Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, hökumət ölkə əhalisinin ərzaqla etibarlı təminatına dair çoxyönlü tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları reallaşdırır...

"Bu gün artıq Azərbaycanda 20-yə yaxın iri fermer təsərrüfatı fəaliyyət göstərir və bu təsərrüfatlarda məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan ən azı 2 dəfə yüksəkdir. Hektardan 50-60 sentner məhsul götürülür. Bax, budur yeni yanaşma və bizim siyasətimiz". Bu fikri Prezident İlham Əliyev çıxışlarında bildirib ki, hər bir ölkə üçün ərzaq təhlükəsizliyi ən vacib məsələlərdən biridir: "Biz Azərbaycanda bu məsələləri həll edirik. Çalışırıq ki, Azərbaycan öz ərzaq tələbatını 100 faiz səviyyəsində özü təmin etsin. Buna nail olmaq üçün bütün imkanlar var - torpaqlar, texnika, ondan sonra dövlət tərəfindən ayrılan vəsait. Subsidiyalar, gübrələr, yanacaq verilir. Eyni zamanda, "Aqrolizinq" xətti ilə texnika təmin edilir. Yəni dövlət öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Fermerlər də bu imkanlardan səmərəli şəkildə istifadə etsinlər ki, kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin".

### Kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan nailiyyətləri sübut edir





Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixdə imzaladağı 1138 nömrəli Fərman ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", sözsüz ki, çox böyük əhəmiyyətə malikdir. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, bu, ölkəmizin yaranmış yeni iqtisadi situasiya ilə əlaqədar seçməli olduğu növbəti inkişaf modelinin bir növ bünövrə mexanizmini müəyyən etdirməklə, bundan sonra atılacaq bütün addımların sırf göstərilən sahələr və istiqamətlər üzrə hazırlanmış strateji yol xəritələrinə uyğun olacağı ilə əhəmiyyət daşıyır.

Göründüyü kimi, bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə, digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sektorunda da regionun, eləcə də, Avropanın lider dövlətinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**





## Əli Əhmədov: "Biz qürur duyuruq ki, bu qısa müddət ərzində yeni iqtisadi və sosial inkişaf modelini yaratmışıq"



İyulun 4-də Baş nazirin müavini Əli Əhmədov Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru xanım Arança Qonzaleslə görüşüb. Əli Əhmədov Beynəlxalq Ticarət Mərkəzinin nümayəndə heyətinin Bakıya səfərinə böyük önəm verdiyini, səfər çərçivəsində aparılan danışıqların Azərbaycanın BMT ilə əlaqələrinin daha da genişlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb. Azərbaycanın dövlət müstəqilliyini 25 il əvvəl bərpa etdiyini xatırladan Baş nazirin müavini vurğulayıb ki, ötən illər ərzində ölkəsi həm iqtisadi, həm də sosial cəhətdən böyük inkişaf yolu keçib. "Biz qürur duyuruq ki, bu qısa müddət ərzində yeni iqtisadi və sosial inkişaf modelini yaratmışıq. Biz Azərbaycana gələn qonaqlara ölkəmizin iqtisadi-sosial nailiyyətlərini təqdim edirik. Böyük gələcəklə bağlı planlarımızı onlarla müzakirə edirik ki, daha düzgün və uğurlu yol seçə bilək. Azərbaycan özünün iqtisadi inkişaf modelini əhəmiyyətli dərəcədə təkmilləşdirmək üzərində düşünür", - deyə Əli Əhmədov bildirib.

## Naxçıvanda "İqtisadi diplomatiya" adlı dərs vəsaiti işıq üzü görüb

Naxçıvan Dövlət Universitetinin dünya iqtisadiyyatı kafedrasının müəllimi Xəlil Vəlizadənin müəllifi olduğu "İqtisadi diplomatiya" adlı dərs vəsaiti işıq üzü görüb. AZƏRTAC xəbər verir ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxan kitab Azərbaycan Respublikasının bu günü üçün aktual və əhəmiyyətli olan iqtisadi diplomatiyanın mahiyyətinin araşdırılmasına, onun tarixi inkişaf mərhələlərinin tədqiqinə, digər amil və proseslərlə bağlılığının təhlilinə həsr olunub. Kitabda iqtisadi diplomatik fəaliyyətin qurulması, diplomatik yazışmaların aparılması qaydaları nəzərdən keçirilib, dünyada gedən qütbləşmə şəraitində və beynəlxalq münasibətlər kontekstində iqtisadi diplomatik standartlardan istifadə yolları göstərilib. Mahiyyət etibarilə dərs vəsaiti "İqtisadi diplomatiyaya giriş" kimi təsnifatlandırıla bilən fəsil və yarımfəsilləri özündə əks etdirir və oxucuya bu barədə ümumi və ya ilkin məlumat vermək məqsədi daşıyır.

Ali məktəb tələbələri, müəllim və diplomatlar üçün nəzərdə tutulmuş dərs vəsaiti 4 fəsildən ibarət olub, 17 mövzunu əhatə edir. Bu fəsillərdə iqtisadi diplomatiyanın nəzəri əsasları öyrənilib, iqtisadi diplomatiya və dövlətin iqtisadi təhlükəsizlik məsələləri arasındakı bağlılıq tədqiq edilib, Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti və iqtisadi diplomatik əlaqələri araşdırılıb. Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinə həsr olunmuş bu əsər Naxçıvan Dövlət Universiteti Elmi Şurasının qərarı ilə ali məktəb tələbələri üçün dərs vəsaiti kimi nəşr olunub.

## Xəzər İsayev: "Azərbaycan Yay Olimpiya Oyunlarına da ev sahibliyi etməyə qadirdir"



"Yay Olimpiya Oyunları dünyanın əsas idman yarışıdır. Əlbəttə ki, Yay Olimpiya Oyunları Avropa və İslam Həmrəyiliyi oyunlarından fərqlidir və miqyası baxımından daha böyükdür. Çünki burada dünyanın bütün dövlətləri iştirak edir. Eləcə də, bu yarışlarda idman növlərinin sayı da çoxdur. Amma biz bu yarışları da keçirməyə qadirik. Ona görə də, Azərbaycan öz namizədliyini təqdim edir". Bu fikirləri yap.org.az saytına Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev deyib. X.İsayev bildirib ki, biz gələcəkdə də bu məqsədlə namizədliyimizi irəli sürəcəyik. Ölkəmizin Yay Olimpiya Oyunları kimi planetin bir nömrəli idman yarışına ev sahibliyi etmək iddiasını ortaya qoyması və namizədliyini rəsmi şəkildə irəli sürməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. "Xoşbəxt xalq olarıq ki, Yay Olimpiya Oyunları da Azərbaycanda keçirilsin. Çünki müsəlman ölkələrində Yay Olimpiya Oyunları keçirilməyib. Bu baxımdan, biz ilk müsəlman dövləti ola bilərik. Təbii ki, bu oyunların keçirilməsində bəzi amillər var və bütün məsələlər Olimpiya Xartiyasına uyğun olmalıdır. Belə bir şəraiti ölkəmizdə yaratmışıq. Əgər Azərbaycana etimad göstərilsə, biz bu şərəfli yükün altından da uğurla çıxa bilərik"-deyə, X.İsayev vurğulayıb.

## Seyid Abrar Hüseyin: "Azərbaycan torpaqlarını işğal etdiyinə görə Pakistan bu günədək Ermənistanı bir dövlət kimi tanımayıb"



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Xarici İşlər Nazirliyinin yeni təyin olunmuş xüsusi katibi Seyid Abrar Hüseyin ilə görüşüb. Xüsusi katibi təyinatı münasibətilə təbrik edən səfir Azərbaycanın Pakistanla əlaqələrə xüsusi önəm verdiyini, bir çox oxşarlıqlara və dəyərlərə malik hər iki ölkənin bir-birini daim dəstəklədiyini bildirib.

Pakistanla bütün sahələrdə əlaqələrin inkişafının məmnunluq doğurduğunu deyən diplomat Ermənistanın Azərbaycana təcavüzünə qarşı Pakistanın ədalətli mövqeyinin yüksək qiymətləndirildiyini bildirib. Azərbaycanın Pakistan üçün qardaş ölkə olduğunu vurğulayan Seyid Abrar Hüseyin Azərbaycan torpaqlarını işğal etdiyinə görə Pakistanın bu günədək Ermənistanı bir dövlət kimi tanımadığını bildirib. Qeyd edilib ki, Azərbaycan və Pakistan daim bir-birilərini dəstəkləyir və bu, davam edəcək. Görüşdə, həmçinin ticarət-iqtisadi sahədə əlaqələrin gücləndirilməsi istiqamətində görülən işlər, qarşılıqlı səfərlərin təşkili, iki ölkənin şəhər və regionları arasında münasibətlərin genişləndirilməsi perspektivləri, xarici işlər nazirlikləri arasında məsləhətləşmələrin davam etdirilməsi, müqavilə-hüquq bazasının artırılması və digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## Azərbaycanın Çexiyadakı səfirliyi Rəşad Qafarovun vəfatı ilə əlaqədar bəyanat yayıb



Azərbaycan bəzi kütləvi informasiya vasitələrində mərhum Rəşad Qafarova dair qeyri-dəqiq məlumatların yayılması ilə əlaqədar olaraq Azərbaycanın Çexiyadakı səfirliyi bəyanat yayıb. Bəyanatda bildirir ki, cari il iyunun 29-da Azərbaycan Respublikasının vətəndaşı Rəşad Qafarov Çexiyanın Praqa şəhərində özünə məxsus nəqliyyat vasitəsində cansız vəziyyətdə polis tərəfindən aşkarlanıb. Sözügedən məsələ ilə bağlı səfirlik polis orqanları ilə əlaqə saxlayaraq, baş vermiş hadisənin təfərrüatları barədə məlumat əldə etməyə çalışıb. Baş verən hadisənin qətl hadisəsi kimi törədildiyi ehtimal olunur. Hazırda Çexiyanın hüquq-mühafizə orqanları tərəfindən istintaq aparılır. Səfirliyin konsulluğu tərəfindən mərhumun ailə üzvlərinə lazımi köməklik və dəstək göstərilir. Bəzi Azərbaycan kütləvi informasiya vasitələrində mərhum R.Qafarovun Azərbaycanın Çexiyadakı səfirliyinin hər hansı bir nümayəndəsi ilə ortaq biznes maraqlarının olması ilə əlaqədar olaraq əsassız iddialar irəli sürülüb. Bu məlumat açıq böhtan xarakteri daşıyır.

Qeyd etmək istərdik ki, mərhum Rəşad Qafarov Azərbaycanın Çexiyadakı diasporasının fəal üzvlərindən biri olub. Mərhum Rəşad Qafarov artıq 2008-ci ildən Çexiyada sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başlayıb və çalışdığı sektorda kifayət qədər nüfuz sahibi olub. İstintaq aparıldığı zaman KİV-lərdə qeyri-dəqiq məlumatın dərc olunması istintaqın gedişinə habelə, Azərbaycan səfirliyinin Çexiyadakı fəaliyyətinə mənfi təsir göstərəcək. Bununla əlaqədar, məlumatların hər tərəfli yoxlanılması zəruridir.

## MM-in deputatı: Cəmiyyətimiz belə bir qanunu dəstəkləyir



"Milli Məclis deputatının etik davranış qaydaları haqqında" qanun vacib sənəddir. Bu fikri Milli Məclisin deputatı Ağacan Abiyev deyib. A.Abiyev bildirib ki, digər ölkələrin təcrübəsində də belə bir qanun var. Onun sözlərinə görə, bu qanun beynəlxalq təcrübəyə də uyğundur. "Bu qanun dünyanın əksər ölkələrində qəbul olunub. Çox da uğurla işləyir. Mən qanunun əhəmiyyətini yüksək qiymətləndirirəm. Belə bir sənədin qəbul olunması ölkə Konstitusiyasının tələbidir. Düşünürəm ki, bu qanunun aktuallığı cəmiyyətdə özünü təsdiq edəcək. Sənəd ictimaiyyətdə, həm də parlamentdə geniş müzakirə olunaraq qəbul edilib. Bu isə o deməkdir ki, cəmiyyətimiz belə bir qanunu dəstəkləyir"- deyə, A.Abiyev vurğulayıb.

## Gənclər və idman naziri Qubada vətəndaşları qəbul edəcək



Gənclər və idman naziri Azad Rəhimov iyulun 7-də Quba rayonunda vətəndaşları qəbul edəcək. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Quba, Qusar, Siyəzən, Şabran və Xaçmaz rayonlarının sakinləri iştirak edəcəklər. Qəbul saat 11:00-da Heydər Əliyev Mərkəzində (Quba rayonu, Heydər Əliyev prospekti, Heydər Əliyev parkının ərazisi, rayon icra hakimiyyətinin yaxınlığı) başlanacaq. Qəbula gələk istəyən vətəndaşlar Quba (070 202-27-37, 050 200-27-37), Qusar (070 317-24-13, 055 435-76-16), Siyəzən (050 569-43-76, 055 213-94-38, 055 694-53-76), Şabran (050 351-79-05, 055 612-26-62, 070 202-26-62) və Xaçmaz (050 270-80-60, 055 578-35-99) rayon gənclər və idman idarələri ilə əlaqə saxlamalıdırlar.

## İranın ticarət və marketinq üzrə nümayəndə heyəti Bakıya işgüzar səfər edəcək

İyulun 5-6-da İran İslam Respublikasının Qərbi Azərbaycan əyalətinin Kooperasiya Palatasının sədri Mahmudrza Şərifixahın rəhbərliyi ilə ticarət və marketinq üzrə nümayəndə heyəti Bakıya işgüzar səfər edəcək. ASK-dan AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində iyulun 6-da Azərbaycan Sahibkarlar Konfederasiyasında (ASK) hər iki ölkə sahibkarları ilə işgüzar görüş keçiriləcək.

# Polad Bülbüloğlu: "Ölkələrimiz arasında mədəni əlaqələr heç vaxt qırılmayıb"

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilənin imzalandığı gündən 20 il ötür.**

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu TASS agentliyinə müsahibəsində bu sənədin tarixi dəyərindən, Rusiya ilə ikitərəfli münasibətlərin dinamikasından və özünün UNESCO-nun baş direktoru olmaq şanslarından danışıb. AZƏRTAC həmin müsahibəni təqdim edir.

*- Rusiya Federasiyası ilə Azərbaycan arasında 20 il əvvəl imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilənin əhəmiyyətini ötən illərdəki və hazırda yaranmış siyasi vəziyyət baxımından necə qiymətləndirirsiniz?*

-Fürsətdən istifadə edərək, ilk növbədə TASS agentliyinin informasiya jurnalistikasının ən yaxşı ənənələrinə sadiqliyini, hadisələrin çox böyük axınında xüsusi diqqət tələb edən məsələləri qabartmaq bacarığını qeyd etmək istərdim. 1997-ci il iyulun 3-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilənin imzalanması da, şəksiz ki, belə məsələlərdəndir. Bu, ikitərəfli münasibətlərimizin siyasi əsaslarını önə çəkən baza müqaviləsidir. Biz artıq iyirmi ildir onun müddəalarından çıxış edərək, müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdiririk.

Müqaviləni imzalayan yüksək tərəflərin hər iki ölkənin və onların xalqlarının bərabərhüquqlu maraqları əsasında qarşılıqlı faydalı kooperasiyaya can atmaları bu mühüm sənədin əsas məramıdır. Sənəddə sülhün və təhlükəsizliyin dəstəklənməsi məsələləri əks etdirilib, bu istiqamətdə qarşılıqlı öhdəliklərin beynəlxalq-hüquqi çərçivələri dəqiq göstərilib. Məsələn, Müqavilənin 5-ci maddəsində separatizmin bütün təzahürləri pislənir, qrupların və ya ayrı-ayrı şəxslərin Tərəflərin dövlət suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü əleyhinə yönələn fəaliyyətinin qarşısının alınması barədə müddəa var. Əlbəttə, bu tarixi Müqavilənin müasir Azərbaycan dövlətçiliyinin memarı, unudulmaz lider Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində imzalanması da xüsusi qeyd edilməlidir.

*-Bu 20 ildə ikitərəfli Rusiya-Azərbaycan münasibətlərində nə dəyişib? Sizcə, respublikanın rəhbərinin şəxsiyyəti bu münasibətlərə necə təsir göstərib?*

-İyirmi il müasir dünyada yetərincə ciddi müddətdir. Bu müddət ərzində, demək olar, bütün regionlarda böyük dəyişikliklər baş verib. Milli dövlətçiliyin inkişafı ilə bağlı tarixi proseslərin inkişaf etdiyi postsovet məkanı isə çox kəskin dəyişikliklərə məruz qalıb. Əslində, burada bir neçə mərhələ bir-birini əvəzləyib. Əlbəttə, 1990-cı illərin Azərbaycanı, elə həmin dövrün Rusiyası heç də indi gördüyümüz Azərbaycan və Rusiya deyillər. Ötən illər ərzində hər iki ölkə SSRİ-nin dağılmasının böhranlı nəticələrinin aradan qaldırılmasından tutmuş gələcəyə istiqamətlənmiş yeni inkişaf modellərinin işlənib hazırlanmasınadək



böyük yol qət edib. Biz bu yolda dəfələrlə maraqlarımızı uyğunlaşdırmağın uğurlu formalarını tapmışıq, bir-birimizə həqiqətən mehriban qonşu dəstəyi göstərmişik. Məsələn, Azərbaycan Rusiyaya qarşı sanksiya siyasətini dəstəkləməyib və daxili bazarda qiymətlərin müəyyən qədər artmasına baxmayaraq, Rusiya istehlakçılarının təzə meyvə-tərəvəzlə təmin olunmasına sanballı töhfə verib.

Şübhəsiz ki, bu qədər çətin regionda, daim dəyişən konyunktura şəraitində siyasi kursun qurulmasında müəyyənedici rol dövlət başçılarına məxsusdur. Bu gün Azərbaycana hadisələrə strateji proqram baxışı olan çox peşəkar lider İlham Əliyev rəhbərlik edir. O, artıq 15 ilə yaxındır idarəçilik və düzgün qərarlar qəbul etmək məharəti nümayiş etdirir. Çox vaxt bu qərarların əsaslılığına yalnız müəyyən vaxt keçəndən sonra əmin oluruq. Amma cənab Prezident hadisələrin gedişatını aydın görür və buna görə də çox yaxşı nəticələr əldə edir. Bu, Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərdən biri olan Rusiya ilə münasibətlərimizin inkişafına da şamil olunur.

*-Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri iyunun 19-da Bakıya səfər ediblər. Beynəlxalq vasitəçilər Azərbaycan rəhbərliyi ilə görüşlərin yekunlarına dair bəyanatla çıxış ediblər və Bakı ilə Yerevanı siyasi iradə nümayiş etdirməyə, münaqişənin həlli üzrə danışıqlara yenidən başlamağa çağırıblar. Sizcə, belə bir format nə dərəcədə səmərəlidir? Azərbaycan tərəfi münaqişənin nizamlanması üçün hansı yolları görür?*

-BMT Təhlükəsizlik Şurasının üç daimi üzvünü birləşdirən format, əslində, çox ciddi görünür. Axı məhz bu ölkələr böyük siyasi çəkiyə və onilliklər, bəlkə də əsrlər ərzində milli diplomatiyaları tərəfindən toplanmış müvafiq təcrübəyə malikdirlər. Məsələn, Rusiya Cənubi Qafqaz regionuna təkcə coğrafi baxımdan yaxın deyildir, həm də onunla sıx tarixi tellərlə bağlıdır. Ancaq gördüyümüz kimi, ATƏT-in Minsk qrupunun 1997-ci ildən fəaliyyət göstərən üçqat həmsədrlik təsisatı hələ də arzuedilən nəticəyə - münaqişənin hərbi nəticələrinin aradan qaldırılmasına və onun siyasi həlli prosesinin başlanmasına gətirib çıxarmayıb.

Azərbaycan tərəfinin daim vurğuladığı kimi, münaqişənin həlli üzrə təsirli addımlar atmağın zəruri olduğu vaxt çoxdan çatıb. Azərbaycan ərazilərinin işğalının davam etməsi ilə xarakterizə olunan mövcud status-kvo vəziyyəti yolverilməzdir. ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərin başçıları da 2009-2013-cü illərdəki bəyanatlarında bunu göstəriblər. Yəni indi real nəticələr əldə etmək niyyəti ilə substantiv danışıqların davam etdirilməsi üçün şərait təmin olunmalıdır. Bunun üçün isə siyasi iradə lazımdır. Bir daha vurğulayım ki, danışıqlar konkret xarakter daşımalıdır. Bu, məhz o haldır ki, proses deyil, nəticə əhəmiyyətlidir.

*-Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul ediləcəyi Xəzəryanı dövlətlərin sammitinin tarixi bəlli olubmu? Gələcək Konvensiyanın müddəalarının çoxu artıq razılaşdırılıb. Bu müddəalar Azərbaycan tərəfini razı salırmı?*

-Xəzərin hüquqi statusunun işlənib hazırlanması məsələsini SSRİ dağılandan sonra iki Xəzəryanı dövlətin beş dövlətlə əvəzlənməsi şərtləndirib. Bu məqsədlə xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupu (XİQ) yaradılıb. Bu günə qədər XİQ-in artıq 49 iclası keçirilib. Həmin iclaslarda mövqelərin razılaşdırılması və ümumi yanaşmaların işlənib hazırlanması üzrə böyük iş görülüb. Xəzəryanı dövlətlərin başçılarının dörd sammiti gedişində ciddi irəliləyiş qeydə alınıb, Xəzərin ekoloji mühitinin və bioresurslarının qorunub saxlanılmasını, fövqəladə halların qabaqlanmasını və nəticələrinin aradan qaldırılmasını tənzimləyən mühüm sazişlər imzalanıb. Bir sıra ölkələr - Azərbaycan, Qazaxıstan və Rusiya arasındakı məqamların böyük əksəriyyəti yetərincə ətraflı razılaşdırılıb. Beş dövlətin hamısının mövqelərinin qəti əlaqələndirilməsi istiqamətində fəal addımlar atılır. Bu istiqamətdə də işgüzar nəticələr əldə edilib. Həmin nəticələr Xəzəryanı dövlətlərin başçılarının bu il Qazaxıstanda keçiriləcək V Sammitinə razılaşdırılmış təkliflərlə getməkdən ötrü bu ölkələrin xarici işlər nazirlərinin müavinlərinin, daha sonra nazirlərin özlərinin görüşlərinin keçirilməsinin məqsədəuyğunluğu barədə danışmağa imkan verir.

*-Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin (BND) tikintisində özü üçün hansı perspektivləri görür?*

-Azərbaycan tarixən Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən yolların qovşuğunda yerləşib. Bu, bir çox cəhətdən bizim inkişafımızı və müxtəlif sivilizasiyaların elementlərini özündə birləşdirən Azərbaycan identikliyinin formalaşmasını şərtləndirib. Bu gün ölkəmiz öz iqtisadiyyatını inkişaf etdirmək, eyni zamanda, tərəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına kömək etmək imkanı kimi iri kommunikasiya layihələrini nəzərdən keçirir. Bu baxımdan "Şimal-Cənub" BND Azərbaycanda böyük maraq doğurur. Bizim ərazidə Rusiya, Azərbaycan və İranın dəmir yolları şəbəkəsini birləşdirmək üçün zəruri olan bütün işlər yerinə yetirilib. Həmin vektora xidmət edən avtomobil yolları infrastrukturu genişləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şimal-Cənub" BND məsələlərini daim diqqətdə saxlayır. Bircə bunu demək kifayətdir ki, onun təşəbbüsü ilə 2016-cı il avqustun 8-də Bakıda Azərbaycan, İran və Rusiya prezidentlərinin görüşü keçirilib. Görüşdə BND strategiyasının həyata keçirilməsinin əsas istiqamətləri nəzərdə tutulub, onun zəngin potensialını açmaq səyləri ifadə olunub.

*-UNESCO-nun baş direktoru olmaq şansınızı necə qiymətləndirirsiniz?*

-Mən deyərdim ki, UNESCO-nun səlahiyyətləri sahəsinə aid olan və qlobal səviyyədə üzləşdiyimiz kəskin problem və çağırışların həllinə Azərbaycanın əməli töhfə vermək bacarığını və onun nümayəndəsi kimi mənim bacarığımı yüksək qiymətləndirirəm. Sovet inzibatçılıq modelinin iflasa uğradığı və ümumi struktur böhranı olan bir dövrdə 18 il ərzində ölkəmin Mədəniyyət Nazirliyinə başçılıq edərkən, maliyyələşdirmənin kəskin çatışmamasına, çox vaxt tamamilə olmamasına baxmayaraq, hər halda elə fəaliyyət formaları tapa bilmişəm ki, heç bir mədəniyyət ocağının itirilməsinə yol verilməyib. Heç bir muzey, teatr, musiqi məktəbi, kitabxana bağlanmayıb. Üstəlik, mən 1994-2008-ci illərdə birinci baş direktoru olduğum Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) çərçivəsində, eləcə də 2002-2004-cü illərdə mədəniyyət nazirləri səviyyəsində Mədəni Əməkdaşlıq Şurasına başçılıq etdiyim MDB məkanında uğurlu beynəlxalq əməkdaşlıq formatları tapmağa nail olmuşam.

Sonra Azərbaycanın Rusiyadakı səfiri kimi, humanitar əməkdaşlıq məsələlərinə böyük diqqət yetirməyə davam etdim, MDB-nin iştirakçısı olan dövlətlərin Beynəlxalq Humanitar Əməkdaşlıq Fondunun sədri kimi, "mədəniyyət diplomatiyası" sahəsində bir sıra mühüm layihə və təşəbbüslərdə iştirak etdim. Məsələn, 2010-cu ildə maestro Spivakovun idarəçiliyi ilə MDB ölkələrinin Gənclər Simfonik Orkestrinin konsertlərini təşkil edə bildik. Konsertlərdə Azərbaycandan və Ermənistandan olan gənc musiqiçilər həm Bakıda, həm də Yerevanda birlikdə çıxış etdilər.

Beləliklə, mən böhran meneceri, habelə münaqişələr şəraitində humanitar təşəbbüslər irəli sürən və onları həyata keçirən şəxs kimi dəyərli təcrübə əldə etdim. Düşünürəm ki, təcrübə və vərdişlərin belə məcmusu məni UNESCO-ya faydalı ola biləcək namizəd saymağa imkan verir.

Şansa gəldikdə isə hər bir layiqli namizədin şansı var. Gəlin seçkiləri gözləyək.

*-Sizcə, bu təşkilatın işində nəyi dəyişdirməyə ehtiyac var?*

-UNESCO-nun öhdəsindən gəlməli olduğu əsas vəzifə maliyyələşdirmə qıtlığı şəraitində fəaliyyətinin səmərəliliyini artırmaqdır. Bu, çox mürəkkəb və kompleks vəzifədir. Təhsilə, elmə və mədəniyyətə cavabdeh olan bu iri beynəlxalq təşkilatın həyatına bəzi əməlli-başlı siyasiləşdirilmiş məsələlərin gətirilməsi bu vəzifənin həllini son dərəcə çətinləşdirir. Zənnimcə, biz ilk növbədə siyasi polemikadan maksimum uzaqlaşaraq, UNESCO-da humanitar gündəlik ruhunu tam bərpa etməyə çalışmalıyıq. Sırf siyasi məsələlərin müzakirəsi üçün başqa təsisatlar, ilk növbədə BMT-nin Təhlükəsizlik Şurası və Baş katibi var. UNESCO siyasi məsələlərə dair istiqamətverici göstərişləri onlardan almalıdır.

Bununla yanaşı, UNESCO onun mandatındakı prioritetlərə sadiq qalmalıdır. Yəqin ki, regional bürolar və nümayəndəliklər şəbəkəsinin optimallaşdırılması məsələsi də nəzərdən keçirilə bilərdi. Yəqin ki, bir çox hallarda bu və ya digər regionda öz fəallığını BMT klasterləri çərçivəsində kooperasiya etmək məqsədəuyğun olardı. Ancaq bununla belə, optimallaşdırma birdən-birə, vəsaitin sadəcə azaldılması və kəsilməsi yolu ilə aparılmamalıdır. Ölçülüb-biçilmiş yanaşma hazırlanmalıdır. Bunun üçün mən ilk mərhələdə konkret sahələrin mütəxəssislərini cəlb edərdim. Böyük təcrübəyə malik savadlı və nüfuzlu şəxslərin potensialından istifadə olunması da əhəmiyyətlidir. Beləliklə, birgə səylərimizlə ümumi tarazlı mənzərə yaradıb, qarşıya qoyulmuş vəzifələri qətiyyətlə həyata keçirməyə başlayardıq. Məncə, bu təşkilatın mədəniyyət gündəliyini qabardan intekllektual qərargah və ekspert mərkəzi rolu oynamaq üçün zəruri səlahiyyətləri var.

*-Azərbaycan ilə Rusiyanın hər hansı birgə mədəni layihəsi planlaşdırılırmı?*

-Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələr heç vaxt qırılmayıb. Ümumi tariximizi, ölkələrimizi və xalqlarımızı birləşdirən bəşəri əlaqələrin yaxınlıq dərəcəsini nəzərə alsaq, başqa cür ola da bilməzdi. Amma şəksiz ki, dövlət səviyyəsində də bu əlaqələrin inkişaf etdirilməsi, daha da zənginləşdirilməsi istiqamətində iş gedir. Məsələn, Azərbaycan ilə Rusiyanin mədəniyyət nazirlikləri arasında üçillik dövr üçün əməkdaşlıq proqramı daim yenilənir. İndiki sənəd 2017-2019-cu illəri əhatə edir. Rusiyalı artistlər və kollektivlər Bakıda və Azərbaycanın regionlarında böyük uğurla çıxış edirlər. Məsələn, 2017-ci ildə Gəncəyə Müstəqil Dövlətlər Birliyinin Mədəniyyət Paytaxtı statusunun verilməsi münasibətilə Novruz bayramı günlərində təntənələr olub. İlin proqramı çərçivəsində maraqlı mədəniyyət tədbirləri keçirilib, yeniləri planlaşdırılır. Bir ay sonra Bakıda "Jara" musiqi festivalı start götürür. Bu festival artıq ənənəyə çevrilib, həm tamaşaçılar, həm də burada həvəslə iştirak edən Rusiya estradasının ulduzları arasında böyük populyarlıq qazanıb.

Moskvanın və Rusiyanın digər şəhərlərinin aparıcı muzeylərində Azərbaycan rəssamlarının sərgiləri təşkil olunur, teatrlarımız qastrol səfərlərinə çıxır. Yəni Azərbaycanla Rusiyanın mədəni əməkdaşlıq yolunda sürətli ikitərəfli hərəkət müşahidə olunur. Məgər qonşular arasında başqa münasibətlər ola bilərdimi?

# Aleksandr Proxanov: Bakı - həyat ağacı

*Yeni Azərbaycan sivilizasiyası bütün xalqların, mədəniyyətlərin, dillərin və ənənələrin simfoniyası üzərində qurulur*

***Xəbər verildiyi kimi, tanınmış rusiyalı ictimai xadim, "Zavtra" qəzetinin baş redaktoru, yazıçı Aleksandr Proxanov iyunun sonlarında Azərbaycana səfər edib. Səfər zamanı A.Proxanov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilib, birinci xanım Mehriban Əliyeva ilə görüşüb, respublikamızla, burada baş verən quruculuq prosesləri ilə tanış olub, İsmayıllı rayonunda əcdadlarının yaşadığı İvanovka kəndinə baş çəkib. Yazıçı öz təəssüratlarını "Zavtra" qəzetində dərc edilmiş "Bakı - həyat ağacı. Yeni Azərbaycan sivilizasiyası bütün xalqların, mədəniyyətlərin, dillərin və ənənələrin simfoniyası üzərində qurulur" məqaləsində bölüşüb. AZƏRTAC məqaləni təqdim edir.***

***

Münbit torpağa düşən kiçik toxumdan qol-budaq ataraq çətir əmələ gətirən, sonradan bol çiçək açan tumurcuqlarla örtülən nəhəng ağac böyüdüyü kimi, yeni dövlət də əbədiyaşar təbiət qanunu əsasında eynilə bu cür yaranır.

Mən Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə Bakıya gəldim və mavi Xəzərin sahilində yaranan bu yeni dövlətin qazandığı uğurları böyük maraqla və həvəslə müşahidə etdim. Bu dövlətin təməlini onun banisi və qurucusu, əfsanəvi Heydər Əliyev qoyub. O, sovet dövlətinin idarə olunmasında möhtəşəm təcrübə toplamış güclü, bacarıqlı siyasi xadim, təcrübəli aparat işçisi, diplomat və xüsusi xidmət generalı idi. Haqsız təqiblərə və təzyiqlərə məruz qalan, vəzifədən uzaqlaşdırılan Heydər Əliyev faciəli bir məqamda Bakıya qayıtdı: Azərbaycan doğulmağa macal tapmamış ölürdü. Hakimiyyəti kommunistlərin əlindən alan Xalq Cəbhəsi sərsəm islahatları, idarə etməyi və döyüşməyi bacarmaması ilə ölkəyə əzab verirdi. Qarabağda bir-birinin ardınca rayonları itirən Azərbaycan çalxalanırdı, parçalanmaq həddində idi. Azərbaycanda diletantlar, fırıldaqçılar və sərsəmlər meydan oxuyurdular. Heydər Əliyev bu xaosu aradan qaldırmalı oldu. Öz iradəsi, incə strategiyası ilə sərsəm Xalq Cəbhəsini cilovlaya bildi, ölkənin içərilərinə doğru irəliləməyə can atan erməni qoşunlarının hücumunu dayandırdı. Heydər Əliyev elə bir təməl qoydu ki, onun üzərində yeni Azərbaycan dövləti ucalmağa başladı.

Bu gün Heydər Əliyevin bütün dünyəvi cizgilərini qoruyub saxlayan obrazı rəvayət, əfsanə, mif xarakteri kəsb edir, xalqın bütün tarixi yaddaşını, onun gələcək haqqında arzularını özündə cəmləyir. Bakıda inşa edilən Heydər Əliyev Mərkəzi möhtəşəmdir. Bu, sadəcə memorial deyildir. Bu, bir növ bakılıların Böyük Liderin xatirəsi qarşısında baş əyməyə gəldikləri məbəd, müqəddəs məkandır.

Heydər Əliyev, onun ardınca oğlu İlham Əliyev dağıdıcı xaosun qarşısını alaraq, hakimiyyət strukturlarını möhkəmləndirərək ölkənin mənəvi təməlini də inkişaf etdirməyə başladılar. Şairlər, müğənnilər, tarixçilər, filosoflar, din xadimləri - ölkənin mənəvi dəyərlərini, onun dərin qaynaqlarını, gələcək ümidlərini qoruyub saxlayan hər kəs xalqa ölkələrini, onun tarixi taleyinin bənzərsizliyindən danışır. Onlar izah edirlər ki, nə üçün Allah bu xalqı yaradıb, ona dəniz, dağlar, isti çöllər, zümrüd meşələr kimi pay verib, bitib-tükənməyən neft kimi sərvət, ulduzları daim sayrışan mavi səma bəxş edib.

Mən görkəmli musiqiçilərin və şairlərin məzarları üzərinə çiçəklər qoyanda gənc dövlətin onların istedadı ilə necə inkişaf etdiyini hiss edirdim. Hər bir dövlətin öz qəhrəmanları və şəhidləri, Vətən uğrunda canlarından keçən igidlər panteonu var. Burada, Bakıda qəhrəmanlara dərin ehtiram hissi hökm sürür. Sovet İttifaqı dağılanda, gücdən düşmüş qırmızı səltənət əzablar içində çırpınanda sovet tankları Bakıya daxil oldu. Bakı küçələri qana boyandı. Bu qan ölməkdə olan sovet dövlətinin sonuncu qanı, əzablar içində doğulan yeni ölkə uğrunda axıdılan ilk qan idi.

Mən Şəhidlər xiyabanında məzarlar üzərinə qızılgüllər düzəndə böyük kədər hissi ilə o qorxulu anların qurbanlarının ruhunu anırdım.

İnkişaf etməkdə olan dövlətin pula ehtiyacı var idi. Bu pulları neft verirdi. O neft ki, vaxtilə varlı Nobellərin əlləri ona doğru uzanırdı. Faşistlərin tank karvanları ona can atırdı. Qüdrətli sovet sənayesinin motorlarını qidalandırırdı. İndi bu neft yeni ölkənin sərvətinə çevrilib. Hakimiyyət nefti özəl şirkətlərdən olan şəxslərə paylamayıb. Neftdən əldə olunan dollarları göyə sovurmayıb, onları hiyləgər işbazların sərvətinə çevirməyib. Neft şirkətlərinin gəliri yeni yollarin, aeroportların və limanların yaradılmasına, paytaxtın yenidən qurulmasına yönəldilib.

Tarixin nəfəsi duyulan, valehedici Şərq həyat tərzi, qədim küçələri, qalaları və karvansaraları olan Bakı həmişə mavi dənizin sahilində gözəl şəhər olub. İndi isə paytaxt gələcəyə can atan yeni dövləti, onun ideyasını, futurologiyasını, sürətli sıçrayışını təcəssüm etdirir. Dünyanın ən yaxşı memarları öz layihələri ilə Bakıya gəlirlər. Şəhər fantastik binaları, büllur qüllələri, işıqsaçan göydələnləri ilə inkişaf edir. Gecələr Bakı təyyarədən göy qurşağının bütün rənglərı ilə alov saçan çıraqbana bənzəyir. Gündüzlər yeni prospektlərin və stadionların əhatəsində müasir Bakını gələcəyin şəhərinə çevirən bu gözəl tikililərin bir-birini əvəzləməsi baş gicəlləndirir.

Dövlət güc strukturlarını yaratdı.




Xalq Cəbhəsi dövründə Azərbaycanın ordusu olmayıb - yaxşı təchiz edilmiş erməni hissələrinin zərbələrinə davam gətirməyən pis silahlanmış, nizamsız qruplaşmalar olub. İndi isə dövlət neft gəlirlərindən istifadə edərək yeni ordu - ən müasir silahlarla təchiz olunmuş, gözəl zabit korpusu olan nizami ordu yaradıb. Həmin ordu ötən ilin yazında Dağlıq Qarabağ ətrafında döyüşlər zamanı qələbə əzmini nümayiş etdirib. Bu ordu ermənilərin ələ keçirdikləri ərazilərin bir hissəsini işğaldan azad edib. Hücum Moskvanın təkidi ilə dayandırılıb.

Daxili işlər orqanları baş alıb gedən qanunsuzluğa son qoyub. Qısa müddətdə bütün qanuni oğrular zərərsizləşdirilib, bütün cinayətkar qruplaşmalar darmadağın edilib. Bu gün dövlətdə vətəndaşların əmlakını əlindən alan, maliyyə axınlarına nəzarət edən, küçələrdə özbaşınalıq edən quldurlar yoxdur. Gecələr Bakı küçələrinə çıxın, gəzin, diskotekalarda rəqs edin, bolluğu ilə insanları heyrətləndirən və sevindirən saysız-hesabsız xudmani restoranlarda yemək yeyin. Səkskə içində ətrafa boylanmayın, arxadan zərbə alacağınızdan qorxmayın. Burada nə qolu zorlular, nə də qatillər var. Qadınlar qafqazlılara xas gözəl simalarını, al dodaqlarını və parlayan gözlərini çadra altında gizlətmirlər.

Bəs yeni dövlətin daxili siyasətini necə qurmalı? Bugünkü Azərbaycan cəmiyyətini təşkil edən xalqların, mədəniyyətlərin və etiqadların müxtəlifliyinin öhdəsindən necə gəlməli? Ölkənin dövlətçilik ideyasının, Azərbaycan arzusunun, Azərbaycan seçiminin bu müxtəlif dillər arasında itib-batmaması üçün nə etməli?

Dəhşətli dramatik hadisələr, nifrət və vətəndaş müharibəsi törədən ukraynalılar Ukrayna dövlətini bu ölkədə yaşayan başqa xalqları, onların dillərini, əsasən də rusları boğmağa çalışmaqla, rusofobiya, rus dilinə, rus təşkilatlarına hücumlar etməklə, böyük slavyan qardaşlığı, yaxın keçmişdəki sovet tarixi ilə bağlı olan hər şeyi ukraynalının yaddaşından silməklə yaradırlar. Azərbaycan lap əvvəldən bu yolu rədd etdi. Burada yeni Azərbaycan sivilizasiyası Azərbaycanda məskunlaşan bütün xalqların, mədəniyyətlərin, dillərin və ənənələrin simfoniyası üzərində qurulub. Hazırda burada çoxsaylı ruslar öz övladlarını rus məktəblərində oxudururlar. Bakı həm də rus dilində danışır. Ruslara da xüsusi qayğıkeş münasibət var. Rusiya ilə siyasi, iqtisadi və mədəni tərəfdaşlıq aparıcı rol oynayır. Prezident Heydər Əliyevin vəsiyyətinə əməl edən yeni dövlətin bugünkü ideologiyası qarşıdurma üzərində deyil, harmoniya üzərində qurulur. Sovet keçmişi yeni postsovet indisi ilə vəhdət təşkil edir, Böyük Qələbə, böyük sovet tikintiləri barədə xatirələr qayğı ilə qorunub saxlanılır.

İslam dininə etiqad edən Azərbaycan dini ekstremizmi rədd edir. Başqa ölkələri və əraziləri bitib tükənməyən müharibə, nifrət ocaqlarına, qan çanağına çevirən dini radikallar burada sığınacaq tapa bilməyiblər.

Azərbaycanın xarici siyasəti də elə həmin harmoniya prinsipi üzərində qurulub. Yeni dövlət qüdrətli sivilizasiyaların qovuşduğu məkanda yaradılır. Türkiyə ilə münasibətlər gözəldir. Bu münasibətlər Ankara ilə Moskva arasında indi artıq yoluna qoyulmuş şiddətli münaqişə günlərində Azərbaycanı vasitəçiyə çevirib. İndi Rusiya Türkiyə ilə birlikdə Yaxın Şərqdə sülhün yaradılmasına çalışır.

Qədim sivilizasiyaya malik İran müasir Azərbaycanın tərəfdaşıdır. Azərbaycan yazıçıları, siyasətçiləri və filosofları ilə Azərbaycan qəlbinin mahiyyəti, hələ sonunadək ifadə olunmamış Azərbaycan arzusunun məzmunu haqqında danışarkən tez-tez belə bir fikir eşidirdim ki, Azərbaycanın rolu çoxsaylı dövlət və xalqlar arasında harmoniya, maraqlar balansı yaratmaq, münaqişə edən qüvvələr arasında barışdırıcı qüvvə olmaq, çoxsaylı xalqların mürəkkəb simfonik vəhdətə gətirməkdir.

Bəs Qarabağ, bəs müharibə? Bəs münaqişə xəttində ardı-arası kəsilməyən atışmalar? Hələ də Azərbaycan ailələrinə gələn qara kağızlar? Onilliklər boyu uzanan bu müharibə ürəkləri sərtləşdirir, qəlbləri nifrət və ədavətlə doldurur. Bu müharibə bugünkü Azərbaycanın ən böyük faciəsidir. Bu faciə Azərbaycan cəmiyyətini daim gərgin vəziyyətdə saxlayır, onu daim səfərbər edir, dövləti daim təkmilləşməyə sövq edir.

Azərbaycanlılar təbiət etibarilə müharibəyə deyil, ticarətə, vuruşmağa deyil, dostluğa və barışığa meyil göstərən sülhpərvər və şən xalqdır. İndi isə yeni ölkədə avanqard arxitekturanın əhatəsində, yeni tarixi və mədəni vəzifələrin təsiri, daimi səfərbərliyin təzyiqi altında çoxmilləti, yaradıcı, şüurunda öz xalqının misilsizliyi ideyası olan, bəxtinə parçalanmış sərsəm dünyaya harmoniya və həmrəylik örnəyi nümayiş etdirmək kimi tarixi missiya düşmüş yeni Azərbaycan milləti yaranır.

Mən dəniz platformalarında neftçilərin necə çalışdığını, şərabçıların böyük çəlləkləri necə doldurduqlarını, gənc şairlərin öz şeirlərini necə həvəslə oxuduqlarını gördüm. Şamaxı yaxınlığında molokan ruslarının, əcdadlarımın yaşadığı İvanovka kəndində yumrusifət, möhkəm və zəhmətkeş molokanlarla bir süfrə arxasında oturdum. Onlar məni molokan əriştəsinə qonaq etdilər, dini mahnılarla sevindirdilər.

İntellektuallar Klubu Bakıda öz şöbəsini açmaq niyyətindədir. Rus və Azərbaycan intellektuallarının münasibətləri getdikcə daha da sıxlaşır. Azərbaycan siyasətində Rusiya istiqaməti strateji istiqamətə çevrilir. Mən Prezident İlham Əliyevlə və onun xanımı, ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə uzunsürən söhbətimdə bu barədə danışdım. İndi Moskvada biz rusların işləri, uğurlarımız və uğursuzluqlarımız arasında, Rusiya dövlətinin qorunub saxlanılması və inkişaf etdirilməsi üzrə əsrlər boyu davam edən işlərimiz arasında bilirəm ki, Qafqazda Rusiyanın dostu var və mən şərab dolu qədəhimi gənc Azərbaycan dövlətinin sağlığına qaldırmaq üçün mavi Xəzərin sahilinə qayıtmaq arzusundayam.

# Müasir Azərbaycanın diaspor təşkilatları ilə qurduğu əlaqələr yeni mərhələdə

*5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi*

***Müstəqilliyimizin ilk illərində milli birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşməsi dövlət quruculuğunun əsas vəzifələrindən biri kimi ortaya çıxdı. Dünyanın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması, lobbiçiliyin təşkili Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu isə, əslində, respublikamızda aparılan dövlət siyasəti ilə ümummilli mənafelərin ortaqlaşması deməkdir. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı.***

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidirlər və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 15 il keçir. Tarixi dövr ərzində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 462-dir. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm də keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

## AZƏRBAYCAN DİASPORU TƏŞKİLATLANARAQ, ÖLKƏMİZİN MİLLİ MARAQLARINI ƏZMLƏ QORUYAN BİR QÜVVƏYƏ ÇEVRİLİB

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublika-




sı Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib.Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi-iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb, tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

## "MƏN ÇOX İSTƏYİRƏM Kİ, XARİCDƏ FƏALİY- YƏT GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARI DA BİR NÖQTƏYƏ VURSUNLAR, BİRLƏŞSİNLƏR"

Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri və rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin, həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin". İki gün davam edən Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonağın iştirakı bu birlik və həmrəyliyin nümunəsi idi. Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirib: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış ola bilirlər". Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl, qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir.

**ZÜMRÜD BAYRAMOVA**



## YAP Səbail rayon təşkilatının idarə heyətinin növbəti iclası keçirilib

Dünən YAP Səbail rayon təşkilatının tədbirlər planına uyğun olaraq, idarə heyətinin növbəti iclası keçirilib. YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev iclası açaraq, son bir ay ərzində respublikamızın, Səbail rayonunun, Yeni Azərbaycan Partiyasının, o cümlədən, rayon partiya təşkilatının ictimai-siyasi həyatında baş verən hadisələrdən ətraflı bəhs edib. Təşkilat sədri ilin əvvəlindən etibarən 900-ə yaxın yeni üzvün partiya sıralarına daxil olduğunu və idarə heyətinin üzvlərinin bu müddət ərzində mətbuatda aktual məsələlər barədə çoxsaylı çıxışlarının, məqalə və müsahibələrinin dərc edildiyini xüsusi vurğulayıb.

İclas da yeni təsis olunmuş ərazi ilk partiya təşkilatları - "Gənclər Fondu", "Milli Kitabxana" və "Şıx Sanatoriyası" ərazi ilk partiya təşkilatlarından daxil olmuş müraciətlərə baxılıb və bu yeni ərazi ilk partiya təşkilatlarının rayon təşkilatının qeydiyyatına alınması qərarı yekdilliklə qəbul olunub.

## Arzu Rəhimov nümayəndə heyətini qəbul edib



Türkiyənin Ehtiyatda olan Hərbi Qulluqçular Təşkilatının sədri, ehtiyatda olan general-polkovnik Ərdoğan Karakuş və Türkiyə Müharibə Veteranları Təşkilatının sədri, ehtiyatda olan polkovnik Məhmət Şükrü Tandoğanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olublar. SİA-nın verdiyi məlumata görə, səfər zamanı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov ilə görüş keçirilib. Görüşdə hər iki ölkənin Silahlı Qüvvələrinin inkişaf istiqamətlərində həyata keçirilən tədbirlər, ikitərəfli hərbi əməkdaşlığın əhəmiyyəti, regiondakı hərbi siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bölgə üçün vacibliyi məsələləri müzakirə edilmiş və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Görüşdə Qarabağ müharibəsi zamanı əlil olmuş vətəndaşlarımızın qardaş Türkiyə Respublikasında müalicə olunmaları, onlara yaxından göstərilən qayğı və dəstəyə görə Türkiyəli qonaqlara dərin təşəkkür bildirilib. Görüşün sonunda hər iki Təşkilatın sədri Azərbaycan Respublikasında səfərdə olmalarından məmnunluq hissi keçirdiklərini bildirmiş və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinə minnətdarlıqlarını bildiriblər.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib

***İyulun 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.***

Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda Kollegiya üzvləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

İclasda çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Komitə cari ilin birinci yarısında vəzifəsindən irəli gələn funksiyaların həyata keçirilməsi istiqamətində mövcud qanunvericiliyi, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutaraq, milli və dövlətçilik maraqlarının qorunması yolunda fəaliyyətini davam etdirib. Dini durumun öyrənilməsi, dini icmalarla işin gücləndirilməsi, radikal dini cərəyan və təriqətlərin qanunazidd əməllərinin aşkarlanması ilə bağlı tədbirlər görülüb. Din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mübarizə mümkün vasitələrlə davam etdirilib, bu istiqamətdə qabaqlayıcı, profilaktik və maarifləndirmə işləri aparılıb.

Mübariz Qurbanlı vurğulayıb ki, Komitənin əsas fəaliyyəti dini etiqad və vicdan azadlığını təmin etmək, dini qurumları dövlət qeydiyyatına almaq, dini radikalizm və ekstremizmlə mübarizə çərçivəsində dini maarifləndirmə işini təşkil etmək, dini qurumlarla əməkdaşlığı genişləndirmək, Azərbaycanın zəngin multikultural ənənələrini ölkə daxilində və beynəlxalq aləmdə təbliğ etmək istiqamətində olub.

Eyni zamanda, Dövlət Komitəsi fəaliyyətini aidiyyəti orqanlarla koordinasiya edərək, hüquq-mühafizə, yerli icra hakimiyyəti orqanları, digər aidiyyəti dövlət qurumları, eləcə də Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və başqa dini mərkəzlərlə yaxından əməkdaşlıq edib.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsiplərindən olan milli-mənəvi dəyərlərimizin təbliğinə dövlət qayğısını önə çəkən Komitə sədri bildirib ki, cari ilin 6 ayı ərzində ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planına müvafiq olaraq bu istiqamətdə çoxsaylı tədbirlər keçirilib.

İclasda Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, Dövlət Komitəsi tərəfindən cari ilin 6 ayı ərzində ölkədə dini durumun öyrənilməsi, təhlil olunması, bu sahədə məlumat bazasının zənginləşdirilməsi prosesi davam etdirilib. Dini icmaların fəaliyyətinə dəstəyin gücləndirilməsi, radikal dini cərəyan və təriqətlərin ölkə ərazisində fəaliyyətinin qarşısının alınması üçün maarifləndirmə işlərinin aparılması ilə bağlı tədbirlər həyata keçirilib.

Səyyad Salahlı bildirib ki, ölkə ərazisində 210-u Naxçıvan Muxtar Respublikasının payına düşməklə 2246 məscid mövcuddur. 727 məscidin dini icması Dövlət Komitəsində rəsmi dövlət qeydiyyatından keçib.

Qeyd olunub ki, 2017-ci ilin yanvar-iyun aylarında dini qurumların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, onların ümumi sayı 767-yə çatdırılıb, o cümlədən 10 "İslam Kolleci" Dövlət Komitəsində qeydiyyata alınıb. İndiyədək dövlət qeydiyyatından keçmiş dini qurumlardan 739-u İslam, 28-i qeyri-İslam təmayüllüdür. Sonunculardan 17-si xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.



Hesabat dövründə respublikada dini təhsillə bağlı vəziyyətin öyrənilməsi, dini təhsil müəssisələri ilə əməkdaşlığın qurulmasının təmin edilməsi, dini təhsillə əlaqəli proseslərin izlənilməsi, müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətinə nəzarətin həyata keçirilməsi istiqamətində işlər davam etdirilib. Belə ki, respublika üzrə 161 ünvanda dini kursların təşkil edildiyi qeydə alınıb. Onlardan 9-u istisna olmaqla, hamısı məscidlərdə təşkil edilən Quran kurslarıdır. Ümumilikdə respublika üzrə 204 kurs fəaliyyət göstərir ki, onlardan 140-ı oğlan, 64-ü isə qız tələbələr üçün nəzərdə tutulub.

Ölkədə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması, siyahısının hazırlanması və təkmilləşdirilməsi sahəsində iş davam etdirilib. Ümumilikdə idxalla bağlı 2017-ci ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 897 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 39 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə təqdim edilən 139 adda dini ədəbiyyata baxılaraq, onlardan 3-nün çapı məqsədəuyğun sayılmayıb. 2017-ci ilin müvafiq dövrü ərzində 7 ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə razılıq verilib.

Səyyad Salahlı bildirib ki, müvafiq dövr ərzində Dövlət Komitəsi tərəfindən dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, həmçinin radikalizmə və fanatizmə alternativ kimi ənənəvi İslamın dirçəldilməsi, hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks işlərin həyata keçirilməsi istiqamətində dini maarifləndirmə tədbirləri respublikanın bütün bölgələrində yerli icra hakimiyyəti orqanları, qeyri-hökumət və gənclər təşkilatları, ziyalılar, din xadimləri və dini icmaların iştirakı ilə təşkil olunub.

Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi barədə imzalanmış 2017-ci il 10 yanvar tarixli Sərəncama uyğun olaraq, Dövlət Komitəsi tərəfindən müvafiq dövr ərzində "İslam həmrəyliyi sülhə çağırışdır", "İslam həmrəyliyi İslamda birgəyaşayış ənənələrinə xidmət edir", "İslamda həmrəyliyə və tolerantlığa çağırış", "Dini radikalizm İslam həmrəyliyinə təhdiddir", "İslam həmrəyliyi: tolerantlıq və İslam mədəniyyəti", "İslam həmrəyliyinin radikallığın qarşısının alınmasında oynadığı rol" və s. mövzularda respublikanın bütün bölgələrində 130-dan artıq tədbir həyata keçirilib.

Həmçinin maarifçilik işi çərçivəsində cari il ərzində "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda 13 regional konfrans, "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda 12 seminar-müşavirə, "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda 9 seminar-treninq təşkil olunub.

Eyni zamanda, Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Komitəsinin dini ekstremizmə qarşı mübarizəyə dair 2017-ci il üçün birgə Tədbirlər Planı çərçivəsində Bakı, Lənkəran şəhərlərində, Ağstafa, Göygöl və Salyan, Göyçay, Zaqatala rayonlarında regional müşavirələr keçirilib.

Dövlət Komitəsi ilə Təhsil Nazirliyi və Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında imzalanmış 2017-ci il üçün Fəaliyyət Planı çərçivəsində təhsil müəssisələrində 170-dən artıq, cəzaçəkmə müəssisələrində isə 8 tədbir baş tutub.

Dini icmalarda dövlətçilik və vətənpərvərlik hisslərinin gücləndirilməsi sahəsində müvafiq işlər görülüb. Belə ki, 20 Yanvar faciəsinin ildönümü ərəfəsində, Xocalı faciəsinin, eləcə də 31 mart Azərbaycanlıların Soyqırımı Gününün ölkə dindarları tərəfindən qeyd olunması, bu faciələr barədə həqiqətlərin insanlara, xüsusən gənc nəslə çatdırılması üçün dini icmalarla yaxından əməkdaşlıq edilib.

Həmçinin dövlətimizin başçısı İlham Əliyevin 2014-cü il 27 noyabr tarixli Sərəncamına əsasən, Prezidentin ehtiyat fondundan Dövlət Komitəsinə ayrılmış 2,5 milyon manat vəsait hesabına ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmaların təqdim etdiyi layihələrin maarifləndirmə və ideoloji baxımdan dəyərləndirilməsi həyata keçirilib və layihələrin hazırlanmasına metodiki dəstək verilib. İndiyədək İslam dini icmaları tərəfindən təqdim edilən 197 layihə maliyyələşdirilib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib

Dövlət Komitəsi sədrinin birinci müavini hesabat dövründə Dövlət Komitəsi tərəfindən milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə çərçivəsində "Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər", "World's famous muslim athletes" ("Dünyanın məşhur müsəlman idmançıları" kitabı ingilis dilində çap olunub və IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən idmançılara paylanıb), "Nardaran və nardaranlılar", "Azərbaycanda xristianlıq: keçmişdən bu günə", "Multikulturalizm: Panaseya, yoxsa Alternativ", "Tolerantlıq və multikulturalizm: Beynəlxalq sənədlər toplusu", "Azərbaycan tolerantlığı dünyanın gözü ilə", "İslam terroru, zorakılığı rədd edir", "Dinin siyasiləşməsi ideoloji təhdiddir", "Dünyəvi dövlətdə dini təhsil: praktika və problemlər", "XXI əsrin ən böyük bəlası: İŞİD", "Müasir dövrdə dini zəmində baş verən münaqişələr", "İslam adı altında gizlənən terror təşkilatları" adlı kitab və broşürlərin nəşr olunduğunu diqqətə çatdırıb.

Dini qurumlarla iş üzrə şöbənin müdiri Əliheydər Zülfüqarov isə Ramazan ayının yekunları barədə məlumat verib. Bildirib ki, Dövlət Komitəsi Ramazan ayı ilə bağlı ardıcıl tədbirlərin həyata keçirilməsi, eyni zamanda, ay boyunca dini durumun nəzarətdə saxlanılması, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlərin aparılması istiqamətində müvafiq işləri davam etdirib. Ramazan ayından öncə əsas məscidlərin axund və imamları, habelə, dini icmaların sədrləri ilə müvafiq söhbətlərin aparılıb, hər bir bölgənin yerli xüsusiyyətləri nəzərə alınmaqla qabaqlayıcı tədbirlər görülüb.

Ramazan ayı boyunca icra olunan ibadətlərin vaxtları ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası ilə birgə təqvim hazırlanıb. Dövlət Komitəsi tərəfindən dini icmalarla, din xadimləri və dindarlarla aparılan söhbətlərdə ölkə üçün sözügedən təqvimin mötəbərliyi önə çəkilib, həm şifahi, həm də mətbu orqanlar vasitəsilə yalnız həmin təqvimdən istifadə tövsiyə edilib.

Əliheydər Zülfüqarov qeyd edib ki, "İslam Həmrəyliyi İli"ndə Ramazan ayı ölkəmizdə yüksək səviyyədə keçirilib. Ay boyu dini icmalara dövlət tərəfindən lazımi qayğı və dəstək göstərilib. Dini icmaların sərbəst şəkildə təravih namazlarının icrası, qədr gecələrinin əhya edilməsi ilə bağlı lazımi şərait yaradılıb. Bundan başqa, respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən və dövlət qeydiyyatına alınmış dini icmalar ziyalılar, din xadimləri, ağsaqqallar, şəhid ailələri, müharibə veteranları və Dövlət Komitəsinin əməkdaşlarının iştirakı ilə iftar süfrələri ətrafında dini maarifləndirici tədbirlər keçiriblər. Qeyd olunan bütün tədbirlərdə dindarlarla söhbətlər aparılıb, ümumi həmrəylik, vəhdət mühiti yaradılıb.

Kütləvi informasiya vasitələrində Ramazan ayı ilə bağlı maarifləndirmə tədbirləri cari ildə daha yüksək səviyyədə təşkil edilib. Xüsusilə "Cəmiyyət və Din" qəzetində müvafiq məqalələr dərc olunub, həmçinin İctimai Televiziyada Dövlət Komitəsinin müəllif proqramı olan "Din və Cəmiyyət" və Space telekanalında yayımlanan "İnam" proqramlarında Ramazan ayına həsr edilmiş mövzular müzakirə olunub.

Kollegiya iclasında, eyni zamanda, Dövlət Komitəsinin təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova və Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayevin hesabat məruzələri dinlənilib.

İclasda daha sonra cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb, təkliflər səsləndirilib.



## UNEC-də keçirilmiş "Açıq qapı"da 30-dan çox müraciət dinlənilib

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) yay imtahan sessiyası ilə bağlı keçirilən "Açıq qapı"da 30-dan çox müraciət dinlənilib. UNEC-dən SİA-ya verilən məlumata görə, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə universitetin rektoru, professor Ədalət Muradov tələbələrin, valideynlərin və universitet əməkdaşlarının müraciətlərinin operativ həlli ilə bağlı müvafiq struktur bölmələrə göstəriş verib.

Milli Məclisin deputatı Zahid Oruc görüşdən müsbət təəssürat aldığını vurğulayıb. O deyib: "UNEC-də həyata keçirilən yeniliklər qısa müddətdə onu beynəlxalq məkanda tanınmış təhsil ocağına çevirəcək. UNEC-in idarəetmə sistemi, məzunları Azərbaycanın gələcək iqtisadi, siyasi idarəetməsinə uğurla daxil olacaqlar".

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev UNEC-də ictimai nəzarət institutunun formalaşdığını diqqətə çatdırıb. "Açıq qapı" günündə müraciətlərə obyektiv yanaşıldığını vurğulayan B.Quliyev onların böyük əksəriyyətinin müsbət həll olunduğunu bildirib. O qeyd edib ki, Dövlət İqtisad Universitetində həyata keçirilən islahatlar, tətbiq edilən yeniliklər cəmiyyətdə artıq "UNEC modeli"ni formalaşdırıb.

## Naxçıvanlı gənclər hərbi xidmətə yola salınıb

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi olub. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, mayor Cavid Məmmədov, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov, təhsil nazirinin müavini Əli Vəliyev əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Mahir Hüseynov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Nicat Mehtizadə Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bunun nəticəsidir ki, 2016-cı ilin aprel ayında ordumuzun hərbi birləşmələri qısa müddət ərzində işğal altında olan ərazilərimizin bir hissəsini düşməndən azad edib. İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında quruculuq-abadlıq işlərinin aparılması



vətəndaşlarımızın vaxtilə düşmən tapdağı altında olan torpaqlarımıza qayıtmaq ümidini artırıb.

Xidmət rəisi qeyd edib ki, ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi Silahlı Qüvvələrimizin istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir. Bu gün Azərbaycanın, eyni zamanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla təmin edən müasir və güclü ordumuz var. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən, bu yaxınlarda muxtar respublikada iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimlərinin keçirilməsi və təlimdə qarşıya qoyulan tapşırıqların layiqincə yerinə yetirilməsi də ordumuzun gücünü bir daha sübut edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il mayın 31-də "Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamı ilə ölkəmizdə, eləcə də muxtar respublikamızda hərbi xidmətə çağırış kampaniyalarının başlandığını deyən Səxavət Salmanov Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, onların övladlarının ordu sıralarında ləyaqətlə xidmət edəcəklərinə əminliyini bildirib.

Mərasim Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başa çatıb.

# Ermənistanin ictimai-siyasi və hərbi rəhbərliyinin yalanları tükənib

*Lragir am: "Əgər dövlət siyasəti dəyişməsə, suverenliyin itirilməsi təhlükəsi aradan qaldırılmasa, siyasi, diplomatik və iqtisadi siyasətə yenidən baxılmasa, hər şey yenidən başlaya bilər"*

***Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyan növbəti dəfə sərsəm iddia ilə çıxış edərək bildirib ki, təmsil olunduğu ölkənin ordusu "düşmənin istənilən hücumuna cavab verməyə qadirdir"...***

Bir sıra ciddi və nüfuzlu beynəlxalq təşkilatların Qarabağda yenidən müharibənin başlaması və Azərbaycanın işğal altındakı torpaqlarını azad edəcəyinə dair verdikləri real analizlərə gəldikdə isə, Akopyan iddia edib ki, şəxsən həmin analizlərlə tanış deyil və s. Göründüyü kimi, ermənilərin ictimai-siyasi və hərbi dairələrinin ortada məğlubiyyət faktları ola-ola, o cümlədən, həmin faktların reallaşması ehtimallarının yenidən gündəmə gəlməsinə rəğmən nala-mıxa döyəcləmələri, əslində, heç nəyi dəyişmir.

### Movses Akopyana görə, bu kimi suallara cavab vermək baş qərargahın kompetensiyasında deyil və həmin sualları Ermənistanın siyasi yurisdiksiyası cavablandırmalıdır...

Yeri gəlmişkən, Naxçıvan Muxtar Respublikasında keçirilən nəhəng miqyaslı hərbi əməliyyatlardan sonra işğalçı ölkənin rəhbərliyi bu və ya digər şəkildə bənzər bəyanatlar versələr də, bir sıra əks-fikirli siyasilər siyasi blef kimi qiymətləndirirlər. Yəni müharibənin başlayacağı təqdirdə, məğlubiyyət durumunun ortada olduğunun inkar edilməsi, əslində, etiraf kimi dəyərləndirirlər.

Ancaq bütün bunlara baxmayaraq, Ermənistan silahlı qüvvələrinin baş qə-



rargah rəisinin reallıqları kənara qoyub, "Silahlı qüvvələrimizin öz analizləri var ki, müharibə baş verərsə, biz bunun qarşısını alaraq, müdafiəni təşkil edəcəyik" tipli fikirlər səsləndirməsi hadisələrə doğru qiymət verməyi bacaran bir çox ermənin politoloqlarını hiddətləndirib. Məsələn, erməni politoloqları iddia edirlər ki, son günlər cəbhənin təmas xəttində ard-arda bir neçə erməni hərbçisinin ölümü, bundan öncə isə, hərbi texnikaların və raket qurğularının məhv edilməsi məğlubiyyət cücərtilərinin ilk işartılarıdır.

Daha bir məsələ Rusiyanın Azərbaycana ən müasir hərbi texnikalar və silahlarla təchiz etməsidir ki, bu amil ermənilərin "strateji partnyorlarından üz çevirmələri ilə nəticəsini tapıb. Artıq Ermənistanda anti-Rusiya xarakterli fikirlər kütləvi hal almaqla yanaşı, ölkə suverenliyinin itirilməsi, müstəqilliyin olmaması barədə şərhlər də verilir. Ancaq jurnalistin M.Akopyana Azərbaycanın Rusiyadan silah alması, eyni zamanda, Rusiyanın Azərbaycanı ən müasir silahlarla və hərbi texnikalarla təchiz etməsi ətrafında verdiyi sualı gülünc şəkildə cavablandırması da diqqətdən yayınmayıb. Akopyan bildirib ki, bu kimi suallara cavab vermək baş qərargahın kompetensiyasında deyil və həmin sualları Ermənistanın siyasi yurisdiksiyası cavablandırmalıdır (?-R.R.).

Bu zaman sual yaranır: əgər Ermənistanın baş qərargah rəisi bu qədər özündən müştəqildirsə, yaxud Ermənistanın siyasi rəhbərliyindən kənarda dayanırsa, nəyə görə cəbhədə baş verən məğlubiyyətlərə əncam çəkmir? Məsələ də bundadır ki, Akopyan, ümumiyyətlə, danışmağa qorxur, çünki o, danışarsa, postunu itirmək təhlükəsini yaşaya bilər.

### Siyasi şərhçi Akop Badalyan isə yazır ki, ötən ilin aprelində müharibənin daha geniş sahəni əhatə etməsinin qarşısı alınsa da, görünən budur ki, bu vəziyyəti uzun müddət saxlamaq mümkün olmayacaq

Ancaq gəlin, eyni zamanda, Ermənistan mediasının nə yazması ətrafında fikirlərə diqqət yetirək. Belə ki, "lragir.am" saytının analitiki Akop Badalyan yazır ki, ötən ilin aprelində müharibənin daha geniş sahəni əhatə etməsinin qarşısı alınsa da, görünən budur ki, bu vəziyyəti uzun müddət saxlamaq mümkün olmayacaq. SİTAT: "Əgər dövlət siyasəti dəyişməsə, suverenliyin itirilməsi təhlükəsi aradan qaldırılmasa, siyasi, diplomatik və iqtisadi siyasətə yenidən baxılmasa, hər şey yenidən başlaya bilər".

Bütün bunlar isə, bir daha sübut edir ki, Ermənistanda müharibə xofu qalmaqdadır və hakimiyyət əlində olan bütün vasitələrdən istifadə edərək, xalqın fikirlərini müharibə təlaşından yayındırmağa cəhdlər edir. Ancaq bu cəhdlərin edilməsi nəticəsiz qalır. Hətta bənzər yalanlar belə, xalqı inandırmır. Hər halda, işğalçı rejim bunu vaxtında dərk etməsə, daha ağır məğlubiyyətə düçar olacağını bəri başdan hiss etməlidir.

***R. RƏSULOV***

# Manvel Sarqsyan: "Bako Saakyan aprel müharibəsinin başlanmasında maraqlı olub"



***Ermənistanın milli və strateji araşdırmalar mərkəzinin direktoru, politoloq Manvel Sarqsyana görə, aprel müharibəsinin baş verməsi "dqr"in (dırnaqlar bizimdir-red.) "prezidenti" Bako Saakyana sərf edib və o, bu müharibənin başlanmasında maraqlı olub.***

SİA-nın məlumatına görə, bu barədə 1in.am saytı adıçəkilən politoloqun fikirlərini qeyd edərkən yazır. Manvel Sarqsyan onu da xatırladıb ki, qondarma respublikada fəaliyyət göstərən "siyasi partiyalar" - "azad vətən" və "xalq partiyası" yenidən Bako Saakyanın "prezidentliyə" namizədliyini irəli sürüblər və bir müddət öncə aparılmış "konstitusiya islahatları" da məhz Saakyanın hakimiyyətini uzatmağa hesablanmışdı. "Bütün hallardan belə nəticə çıxarmaq olar ki, "konstitusiya islahatları" buna görə keçirilib. Çünki "konstitusiya" Bako Saakyanın iki dəfədən artıq "prezident" seçilməsini əngəlləyirdi. Başqa vasitə axtarmağa da yol yox idi və siyasi gedişlər etmək məcburiyyətində qalınmışdı".

Erməni politoloq xatırladıb ki, hələ "islahatlardan" öncə deyilirdi ki, "arstax konstitusiyası" Ermənistanın konstitusiyası ilə hormonluq təşkil etməli, orada da parlament üsul-idarəsi tətbiq olunmalıydı. "Bəli, belə də vurğulanırdı, ancaq sonradan bəlli oldu ki, bütün bunlar bir oyun idi, bir blef idi"-deyə qeyd edən Manvel Sarqsyan əlavə edib ki, keçid mərhələsi üçün 3 ilin qaldığı deyildi və nəticədə Saakyanın "hakimiyyəti" müddəti uzandı: "Çoxları bunu təhlükəli addım hesab edir. Faktiki olaraq seçən "xalq" deyil, "parlament" olacaq. Ümumiyyətlə, onların heç kim qarşısında cavabdehlik məsuliyyətləri yoxdur, nə istəyirlərsə onu da edirlər".

Aprel müharibəsinə gəlincə, erməni politoloqu bildirib ki, əgər müharibə olmasa idi belə, onlar ("dqr" separatçıları-red.) "hakimiyyətlərinin" ömrünü uzatmaqdan ötrü, onun baş verməsi üçün hər şeyə gedəcəkdilər.

***Rövşən Nurəddinoğlu***



## Əyri budaq məsələsi...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Gözəl Bayramlı olayının ardınca Əfqan Muxtarlı məsələsinin də üzə çıxması dağıdıcı müxalifətin Gürcüstan üzərindən anti-Azərbaycan fəaliyyətini ifşa etmiş oldu. Məhz bundan sonra bu kimi hallarda haray-şivən qoparmağa alışmış dağıdıcı müxalifət partiyalarının "liderləri" dərhal saçlarını yolub, xarici ağalarının ətəklərindən yapışmağa başladılar. Nədir ki, bunların adamları Azərbaycan dövlətinin maraqları əleyhinə çıxış edən xarici emissarlarla Gürcüstanda görüşlər keçirərkən, qeyri-qanuni qrantlar, maliyyə dəstəkləri alarkən, kimsə bunlara güldən ağır söz deməməli, hətta bunun üçün şərait də yaratmalıymışlar (?!-R.N.). Məhz bu cür dayaz düşüncələrə qapılaraq siyasi dividendlər əldə etməyə çalışan "liderlər," Gürcüstan məsələsini əllərində bayraq tutaraq, çirkin məqsədlərini reallaşdırmağa başladılar.***

### Arif Hacılı ilə Henrik Bach Mortensenin üst-üstə düşən fikirləri arxasında dayanan müəmmalar

Bu dəfə Müsavat başqanı Arif Hacılının Gürcüstana səfər edərək, orada müəmmalı görüşlər keçirməsiylə yanaşı, Azərbaycan dövlətinin əleyhinə fikirlər səsləndirməsi deyilənləri bir daha təsdiq edir. Daha dəqiq desək, ALDE - nin (Avropa Liberal Demokratlar Aliyansı) vitse-prezidenti və Gürcüstanın müxalifət nümayəndələri ilə, o cümlədən, Gürcüstanın Azad Demokratlar Partiyasının rəhbərliyi ilə görüşlərə qatılması, bu görüşlərdə Ə.Muxtarlının həbsi ətrafında müzakirələr aparması, özü-özlüyündə hər şeyi deyir.

Yeri gəlmişkən, Müsavat başqanının Gürcüstana getməsinin kökündə, eyni zamanda, ALDE - nin vitse-prezidenti Henrik Bach Mortensenin də həmin ölkəyə getməsnin təməlində Ə.Muxtarlı amili dayanıb. Yəni bu məsələ artıq anti-Azərbaycan maraqlarına köklənmiş tərəflərin ambisiyalarına daxil olub.

### Hesab sorulmalıdır!

Məsələn, A.Hacılı Ə.Muxtarlı məsələsi ilə bağlı Gütcüstanın yerli telekanallarına müsahibəsində onun "oğurlanması"nı" iddia edib. Onun kimi ALDE - nin vitse-prezidenti Henrik Bach Mortensen də çıxış edir. Üstəlik, A.Hacılının Gürcüstandakı Respublikaçılar Partiyasının rəhbərliyi ilə də görüşləri bu mövzunu əhatə edəcək. Beləliklə, məsələnin kökündə dayanan və ilk görünən faktor budur ki, 2018-ci il prezident seçkilərinə hələ uzun müddət qalmasına baxmayaraq, dağıdıcı müxalifət ətrafında süni ajiotaj yaratmağa çalışır, bununla yanaşı, seçkilərə qədər siyasi xallar qazanmaqla yanaşı, maddi vəziyyətlərini artırmaq üçün xarici ağaların qoltuqlarına sığınır, onlardan yeni öhdəliklər almağa hazırlaşırlar. Bu isə, bilavasitə, Azərbaycan dövləti əleyhinə yönəlmiş addım kimi qiymətləndirilməlidir. Ən azından, dövlətin qanunları timsalında istər A.Hacılıdan, istərsə də, Ə.Kərimlidən və s. dağıdıcı müxalifətçilərdən hesab sorulmalıdır. Əks halda, onların maddi təminatçıları - xarici havadarlarının, həmçinin, erməni lobbisinin ayağı daha çox yer almağa başlayacaq. Xalq dəfələrlə bu kimi halların şahidinə çevrilib. Necə deyərlər, əyri budaq vaxtında kəsilməsə, sabah həmin budağın kimsə zərər vura biləcəyini heç kim sığortalaya bilməz.

# Ermənistanın düşünməyə vaxtı qalmayıb

## Saatlar isə yalnız irəliyə doğru və Azərbaycanın xeyrinə işləyir

***Son günlər işğalçı Ermənistan və separatçı "DQR"-də kəskin narahatlıq və təlaş hissləri müşahidə olunmaqdadır. Belə ki, mövcud vəziyyət hələ ötən ilin aprelindən sonra, yaşanmağa başlayıb. Azərbaycan Ordusunun ermənilərin təxribatlarına sərt cavab verməsindən sonra təmas xəttində və işğalçı respublika ilə həmsərhəd bölgələrdə kütləvi çaxnaşmalar yaşanmaqla yanaşı, köçlərə də start verilmişdi.***

Təkcə aprel savaşından sonra 2000-dən çox erməni Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsini tərk edərək, nəinki Ermənistanda qalıb, əsasən, Rusiya və başqa xarici ölkələrə qaçıb. Bu barədə BMT-nin qaçqınlarla iş üzrə ali komissarının Yerevan təmsilçisi Kristof Birvirt rəsmi açıqlamasında bildirmişdi. Düzdür, sonradan 2000 nəfər ermənidən 573 nəfəri (172 ailə) geri qayıtsa da, onların sosial məskunlaşmasının daimi olmadığı da vurğulanır. Yəni cəbhədə vəziyyət yenidən gərginləşərsə, yenidən kütləvi köç halları baş qaldıracaq. BMT-nin nümayəndəsi bu cür qənaətə gəlib.

Yeri gəlmişkən, elə düşmən ölkənin mətbuatı da aprel əməliyyatlarından sonra Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər rayonlarını tərk edənlərin sayında artımın olduğunu qeyd edirlər. O cümlədən, Qarabağ ətrafındakı işğal altında qalan bölgələrimizdə də yaşayan ermənilər yaşadıqları evlərini birdəfəlik tərk edərək, dünyanın müxtəlif ölkələrinə səpələniblər. Məsələn, etiraf olunur ki, əgər aprel döyüşlərindən əvvəl bölgədə, ümumilikdə 30 minə yaxın erməni yaşayırdısa, hazırda bu rəqəm 15-20 minə enib. Bundan əlavə, bir müddət öncə Suriya, Livan və s. ölkələrdən olan qaçqın ermənilər də Qarabağda yaşamaqdan imtina edirlər. Onlar mühitə uyğunlaşa bilmirlər, sosial tələbatlarının təmin olunmadığını deyirlər.

### Siyasi ekspert: "Əsgəran və Ağdərədə, demək olar ki, yaşayış yoxdur"

Söz yox ki, artıq Ermənistandakı hakim rejimin əlavə yalanlar uydurmasına baxmayaraq, kimsə bu yalanlara inanmır. Məsələn, "Cənubi Qafqazda Təhlükəsizlik" İnstitutunun direktoru, siyasi ekspert Məhəmməd Əsədullazadəyə görə, 2016-cı ilin aprel əməliyyatlarında Azərbaycan Ordusunun bir sıra əhəmiyyətli strateji mövqeləri, eləcə də, əraziləri azad etməsinin ardınca, ermənilər başlarını itirdilər. İmkanları olanlar, ümumiyyətlə, Qarabağı və Ermənistanı tərk etdilər, imkansızlar isə Ermənistana üz tutdular. "Həmin ərazilərdə yaşayanlar Ermənistan hakimiyyətinin yalan vədlərinin qurbanlarıdır"-deyə qeyd edən politoloqa görə, əsasən, maldarlıqla məşğul olan ermənilər son 20 il ərzində, demək olar ki, nisbi atəşkəs rejimi altında yaşayırdılar: "Qarabağ münaqişəsinin nizamlanması prosesində ötən ildən Ermənistanın qeyri-konstruktiv mövqeyi vəziyyəti ciddi şəkildə dəyişdi. Ümid edilirdi ki, aprel əməliyyatlarından sonra Yerevan substantiv danışıqlara gedəcək. Amma görünən budur ki, Ermənistan tərəfdə belə bir istək yoxdur. Bu halda da, Azərbaycan Ermənistana hərbi təzyiqləri artırmalıdır. Son iki ayda Ermənistan silahlı qüvvələrinə vurulan zərbələr nəticəsində işğal edilmiş ərazilərdə yaşayan ermənilər ciddi şəkildə narahat olublar və burada yaşayan ermənilərin köçü davam edir. Azərbaycan ərazilərini tədricən boşaldırlar. Ermənilər Azərbaycan Ordusunun hər an hücuma keçəcəyi xofu ilə yaşamaqdansa, bölgəni tərk etməyi seçirlər. Əvvəl təmas xətti yaxınlığında heyvandarlıq və əkinçiliklə məşğul olan sadə ermənilər, artıq həmin əraziləri tərk ediblər. Əsgəran və Ağdərədə, demək olar ki, yaşayış yoxdur. Növbəti hərbi əməliyyatlar başlasa, ermənilər Xankəndini də boşaldacaqlar. Azərbaycanın artan təzyiqləri Ermənistanı sülhə məcbur edə bilər".



### Hərbi ekspert: "Təxribatları düşmənə baha başa gəlir"

Hərbi ekspert Üzeyir Cəfərov da belə bir fikirdədir ki, aprel döyüşlərindən sonra Qarabağ və digər işğal olunan ərazilərdən köçən ermənilərin sayı artıb. Belə ki, ağır məğlubiyyətlə orduya və Ermənistan rəhbərliyinə inamları azalan ermənilər növbəti müharibə xofu içərisində yaşamaq istəmirlər. "Aprel döyüşləri vaxtı Gürcüstan Dövlət Sərhəd Xidməti məlumat yaydı ki, Ermənistan vətəndaşları Gürcüstan vasitəsi ilə ölkələrini tərk edirlər"-deyə xatırladan hərbi ekspertin sözlərinə görə, ermənilərdə qorxu yaranmışdı ki, Ermənistan rəhbərliyi müharibə başlayan kimi, onları ön xəttə yollayacaq. SİTAT: "Həmçinin, qoxurdular ki, heç kəs müharibədə onlara sahib çıxmayacaq. Həmin vaxt Qarabağ və digər işğal ərazilərindən də çoxlu sayda insan getdi. Ərazilərin əksər hissəsində bu gün də yaşayış yoxdur. Avropa Parlamenti Ermənistana 3 milyon avro ayırdı ki, Suriyadan gələn qaçqınların yaşayış şəraitlərinin yaxşılaşdırılması üçün xərclənsin. Aydındır ki, Ermənistan hakimiyyəti bu pulları qaçqınlara verməyəcək".

Azərbaycanın Ermənistana hərbi və diplomatik təzyiqlərini artırmasının əhəmiyyətli məqam olduğunu deyən Ü.Cəfərov hesab edir ki, buna görə də cəbhə və sərhəd bölgələrində təxribatlara əl atmağa çalışırlar: "Lakin bu təxribatları düşmənə baha başa gəlir, həlak olanlar var və bir nəfər də əsir götürülüb. Ermənilər böyük narahatlıq içindədirlər. Narahatlıq o həddədir ki, baş verənlərə görə Rusiyanı ittiham edənlərin sayı çoxalıb. İnanırlar ki, Rusiya onları pis vəziyyətə qoyub. Ermənistan KİV-ləri son zamanlar, əsasən, belə mövzulardan yazırlar. Rusiyanın özü də çıxılmaz vəziyyətdədir ki, Azərbaycan tərəfi qətiyyət nümayiş etdirir. Əgər növbəti müharibə başlasa həm Ermənistanda, həm də işğal olunmuş Qarabağ və digər ərazilərdə yaşayan ermənilər bölgəni tərk etməyə başlayacaqlar. Son itkiləri və son hadisələr deməyə əsas verir ki, düşmən çox narahatdır. Mümkündür ki, yaxın zamanlarda Ermənistandan gedənlərin sayı kütləvi hal alsın".

Beləliklə, faktlar da onu göstərir ki, artıq dalana dirənmiş Ermənistanın hakim rejimi, eləcə də, Qarabağ separatçıları son məqamda ya Azərbaycanın tələblərini yerinə yetirməli, ya da başlayacaq yeni hərbi əməliyyatlarda ağır məğlubiyyətlərə uğramalıdırlar. Bütün mənalarda küncə sıxışdırılmış Ermənistanın isə düşünməyə vaxtı çox azdır. Saatlar isə yalnız irəliyə doğru və Azərbaycanın xeyrinə işləyir.

***Rövşən NURƏDDİNOĞLU***

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 4-də Füzuli rayonunun Aşağı Veysəlli kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç aparıblar.

## "Azərbaycanda neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində görülən işlər təqdirəlayiqdir"

Azərbaycanda istedadlı insanlar çoxdur. Ölkədə neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində görülən işlər təqdirəlayiqdir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Arizona Dövlət Universitetinin professoru, iqtisadi elmlər üzrə Nobel mükafatı laureatı Edvard K.Preskott Qusarda keçirilən "Gömrük idarəçiliyində aktual məsələlər və çağırışlar" mövzusunda II Beynəlxalq Tələbə Konfransında söyləyib.

Nobel mükafatçısı iyulun 3-də başlayan konfransda fəxri qonaq kimi "ABŞ iqtisadiyyatının mövcud vəziyyəti" adlı məruzə ilə çıxış edib. Məruzədən sonra aparılan müzakirələrdə Edvard K.Preskott Azərbaycan iqtisadiyyatında reallaşdırılan islahatlar, ölkənin iqtisadi potensialı və gələcək perspektivləri barədə müsbət fikirlər səsləndirib.

Məruzədə yaxşı və layiqli idarəçilik, insan kapitalı, ixtisaslı kadrların yetişdirilməsi, resursların düzgün qiymətləndirilməsi və səmərəli istifadəsi, iqtisadiyyatın şaxələndirilməsi və digər aktual məsələlərə toxunan alim, eyni zamanda, Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işləri dəyərləndirib. Edvard K.Preskott Azərbaycanda vergi, gömrük, o cümlədən sahibkarlığın və ticarətin inkişafına təkan verən digər sahələrdəki güzəştləri önəmli hesab edib. Əlverişli təbiətə malik Azərbaycanın çeşid və keyfiyyət baxımından müxtəlif meyvə-tərəvəz növlərinə sahib olduğunu söyləyən alim bu sahəyə əsaslı kapital qoyuluşu hesabına iqtisadiyyatda ciddi inkişafa nail olunacağına əminliyini bildirib. Beləliklə, son dövrlər Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, ölkəmizdə qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatı sahəsində mövcud potensialın düzgün dəyərləndirilərək inkişaf etdirilməsi istiqamətində uğurlu siyasətin aparıldığını amerikalı alimin tezis və mülahizələri də təsdiqləyir.

## Kreml Putinlə Trampın görüşəcəyi vaxtı açıqlayıb



Rusiya və Amerika Birləşmiş Ştatlarının prezidentləri Vladimir Putin və Donald Tramp iyulun 7-də Hamburqda görüşəcəklər. Bu barədə Rusiya administrasiyasından prezident köməkçisi Yuriy Uşakov məlumat verib. AZƏRTAC Rusiyanın NTV telekanalının saytına istinadla xəbər verir ki, Hamburqda "Böyük iyirmilik" (G20) sammitində iştirak edəcək hər iki ölkənin dövlət başçılarının görüşündə mövcud siyasi və hərbi qarşıdurmalarla bağlı məsələləri müzakirə edəcəkləri gözlənilir. Xatırladaq ki, "Böyük iyirmilik" sammiti iyulun 7-8-də Almaniyanın Hamburq şəhərində keçiriləcək.

## Bakıda rus bəstəkarı Sergey Raxmaninovun xatirəsi anılacaq



İyulun 7-də M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında görkəmli rus bəstəkarı Sergey Raxmaninovun xatirəsinə həsr edilmiş musiqili gecə keçiriləcək. Filarmoniyadan SİA-ya bildirilib ki, Əməkdar İncəsənət Xadimi Elşad Bağırov və Əməkdar Artist Fuad İbrahimovun dirijorluğu ilə baş tutacaq konserti Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edəcək. Gecədə Xalq artistləri Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə və Yeganə Axundova çıxış edəcəklər. Konsertdə bəstəkarın fortepiano və orkestr üçün nota aldığı iki nömrəli süitası və iki nömrəli konserti də səsləndiriləcək.

# Müalicə-sağlamlıq turizminin inkişafı üçün təbii ehtiyatlarımız mövcuddur



***Azərbaycanda yüksək iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində böyük irəliləyişlər əldə olunub. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bunun həllinə lazımi şərait yaradıb. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycanda səhiyyə turizminə diqqət artıb. Bildiyimiz kimi, dünya təcrübəsində müalicəvi əhəmiyyəti olan və əsrarəngiz mənzərəyə malik yerlərə turistləri cəlb etmək üçün turlar təşkil olunur, bu yerlərdə müalicə müəssisələri və kurortlar inşa edilir.***

Ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafı üçün də təbii ehtiyatlar baxımından hər şey var ki, bu da Azərbaycanın səhiyyə turizminin geniş şəkildə dünya məkanına çıxarılmasında əsas faktorlardır. Məlumdur ki, Azərbaycanın ərazisi planetimizin palçıq vulkanizminin inkişaf etdiyi unikal və klassik regionudur. Palçıq vulkanları ərazilərinin böyük turizm potensialı var. Palçığın tərkibi çox lazımlı mikroelementlərlə zəngin olduğundan, onların çoxu müalicəvi əhəmiyyətə malikdir. Müasir dövrümüzdə dünya təcrübəsində palçıq vulkanları yerləşən, möhtəşəm və əsrarəngiz görünüşə malik ərazilərə turistləri cəlb etmək üçün turlar təşkil edilir, müalicəvi əhəmiyyətli kurortlar salınır. Bu ölkələr rekreasiya əhəmiyyətli resurslarından bacarıqla istifadə edərək milyonlarla gəlir əldə edirlər. Təkcə dünyada kurort zonası kimi tanınan Krıma diqqət etsək, görərik ki, bu məkanda 240-dan artıq müalicəvi kurortlar fəaliyyətdədir ki, hər il yüzlərlə insan müalicə olunmaq məqsədilə buraya üz tuturlar. Son 20 ildə Krımın turizm infrastrukturunun inkişafı Antalya kimi turizm məkanları ilə müqayisə olunacaq səviyyədədir. Azərbaycanın da təbii imkanları və kurort zonaları ölkənin turizm bazasına lazımı qədər gəlir gətirmək imkanındadır. Son illərdə Azərbaycanın 16 tibb müəssisəsində palçıqdan poliartrit, radikulit, hepatit, bir çox dəri xəstəliklərinin və əsəb sisteminin müalicəsində istifadə edilir.

Hazırda palçıq vulkanları təbii abidələr statusu alıb və dövlət tərəfindən qorunur. Müstəqillik dövrümüzdə vulkanlar təbiət abidələri statusu alıblar. Bakı və Abşeron ərazisində 52 palçıq vulkanına qoruq statusu şamil edilib.

## NAFTALAN NEFTİNİN ŞÖHRƏTİ BU ŞƏHƏRƏ GƏLƏN TURİSTLƏRİN SAYINI BİRƏ-BEŞ ARTIRIB

Müalicəvi əhəmiyyət kəsb edən Naftalan nefti respublikamızın ən qiymətli təbii sərvətlərindən biridir. Ta qədimdən indiyə kimi saysız-hesabsız xəstə bu neftin şəfaverici keyfiyyətindən bəhrələnib. Müalicəvi xassələrə malik olan Naftalan nefti sümük - oynaq, dəri və uroloji xəstəliklər, əsəb, uroloji və dəri xəstəliklərinin, eləcə də, qara ciyər xəstəliklərinin, oynaqların və dayaq hərəkət aparatına aid olan oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitə kimi bütün dünyada məşhurdur. Elə buna görə respublikamızın şəhər və rayonlarından hər il çoxlu sayda xəstə bura pənah gətirir. Həmçinin, Naftalan nefti güclü iltihab əleyhinə, ağrıkəsici, allergiya əleyhinə və hormonabənzər təsirlərə malikdir. Bu müalicəvi xüsusiyyətlərinə görə, Naftalan nefti ilə 70-dən artıq xəstəliyin müvəffəqiyyətli müalicəsi mümkündür.

Ötən dövr ərzində Naftalanda istifadəyə verilən kurort- sanatoriya tipli müəssisələr, 5 ulduzlu otellər turistlərə göstərilən xidmətin səviyyəsini artırıb. Bu da iqtisadiyyatın əsasını turizm təşkil edən şəhərə gələnlərin sayına birbaşa təsir edib. Gün ərzində 2100 nəfərin müalicəsi və istirahəti üçün yaradılan şərait turistlərin diqqətini cəlb etməyə bilməz.

## "QALAALTI"NIN YENİ DÖVRÜ

Azərbaycanın mineral sularından da təbabətdə geniş surətdə istifadə olunur. Azərbaycandakı müxtəlif mədən sularının müalicə xüsusiyyətləri insanlara qədim zamanlardan məlum olmuşdur. Azərbaycan müalicə əhəmiyyətli mineral sularla zəngindir. Ölkəmizin ərazisində 1000-dən çox mineral su bulağı vardır. Bu bulaqların çoxu respublikamızın dağlıq rayonlarında yayılmışdır. Düzən rayonlarda isə təbii su bulaqlarına az rast gəlinir.

Əlbəttə, bütün bunlar Azərbaycandakı şəfaverici bulaqların yalnız bir qismidir. Bu bulaqlar sırasında məşhur "Qalaaltı"nın da özünəməxsus yeri var. Belə ki, "Qalaaltı" mədən suyu hidrokarbonat-kalsium, xlorid-sulfat-natrium mədən sularındandır və tərkibində çoxlu miqdarda hidrogen-sulfid vardır. Həmin su özünün tərkibindəki kimyəvi maddələrin köməyi ilə daşəridici xassəyə malikdir, eyni zamanda, iltihab əleyhinə də təsir göstərir.

"Qalaaltı Hotel & SPA" kompleksinin istifadəyə verilməsi respublikamızın turizm infrastrukturuna, xüsusilə də, müalicəvi turizmin inkişafına öz töhfəsini verir. 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə bilən otel, villa və kotteclər var. "Qalaaltı" kompleksində yerləşən tibbi mərkəz müasir avadanlıqla təchiz edilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, Qalaaltı suyu çox məşhur sudur, nadir keyfiyyətlərə malikdir və bu gözəl mərkəz yaranandan sonra, əminəm ki, həm Azərbaycan vətəndaşları, həm də xarici qonaqlar bu imkanlardan istifadə edəcəklər.

Azərbaycanın yeraltı-yerüstü sərvətləri, zəngin təbiəti hər zaman diqqətdə olmuş və ölkəmizə gələn turistlər üçün böyük tapıntı təsiri bağışlamışdır. Bura gələn həm sağlamlığını bərpa edir, həm də səfalı guşələrdə istirahətinin təşkilinə nail ola bilir. "Biz çox xoşbəxt insanlarıq ki, belə gözəl ölkədə yaşayırıq", - deyən Cənab İlham Əliyev Xəzər dənizinin, dağların, çayların, bulaqların, göllərin və meşələrin ölkəmizə olmasını turizmin inkişafında müstəsna rolu olduğunu bildirib: "Belə olan halda, turizmin inkişafı bir neçə il bundan əvvəl prioritet istiqamət kimi müəyyən edilmişdir və hazırda ölkəmizin müxtəlif yerlərində dünya səviyyəli turizm mərkəzləri və kurortlar fəaliyyət göstərir. Hər bir ölkə, xüsusilə, Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir".

Bu gün Qalaaltıda müalicə almaq, istirahət etmək və dincəlmək üçün bütün imkanlar var. Əminliklə deyə bilərik ki, bu gün Azərbaycanda turizm bazarı açıq və rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi üçün görülün işlər bunu təsdiqləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "İpək Yolu" VIII Beynəlxalq Musiqi Festivalında, ilk dəfə olaraq, hərbi kollektiv kimi DSX-nin Nümunəvi Hərbi Orkestri iştirak edib

***Azərbaycanda mədəni irsin qorunub saxlanılmasına, xalqımızın zəngin mədəniyyətinin təbliğ edilməsinə böyük diqqət və qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin ölkəmizdə çoxsaylı beynəlxalq mədəni tədbirlərin, musiqi festivallarının yüksək səviyyədə təşkil edilməsi və keçirilməsinə xüsusi diqqət yetirməsinin daima şahidi oluruq.***



Bu barədə "SƏS" qəzetinə Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən məlumat verilib. Məlumatda qeyd olunur ki, Şəki şəhərində keçirilən və artıq ənənə halını almış "İpək Yolu" VIII Beynəlxalq Musiqi Festivalı musiqi aləmində yüksək dəyərləndirilən tədbirlərdən biridir. Xarici ölkələrin böyük musiqi kollektivlərinin iştirak etdiyi musiqi festivalı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının və Şəki şəhər icra hakimiyyətinin birgə təşkilatçılığı ilə iyun ayının 27-dən iyulun 1-dək Şəki şəhərində keçirilib. Yaponiya, Polşa, Macarıstan, İran İslam Respublikası, Türkiyə, Gürcüstanın musiqi və rəqs kollektivlərinin iştirakı ilə keçirilən "İpək Yolu" VIII Beynəlxalq Musiqi Festivalında, ilk dəfə olaraq, hərbi kollektiv kimi DSX-nin Nümunəvi Hərbi Orkestri də iştirak edib.

Festivalda geniş konsert proqramı ilə çıxış edən DSX-nin Nümunəvi Hərbi Orkestri tərəfindən Azərbaycan bəstəkarlarının klassik əsərləri və xarici estrada musiqiləri səsləndirilmişdir. Orkestrin ifasında, xüsusilə, "Koroğlu" operasından uvertüra və "Sərhədçilər" mahnısı tamaşaçıların və xarici qonaqların böyük marağına səbəb olmuş, musiqişünaslar tərəfindən yüksək qiymətləndirilmişdir.

***Rövşən***

## Rusiyanın "Pegas Fly" aviaşirkəti Bakıya uçuşlara başlayır



Rusiyanın "Pegas Fly" aviaşirkəti Moskvanın "Jukovski" hava limanından Bakıya uçuşlara başlayır. AZƏRTAC hava limanının rəsmi saytına istinadla xəbər verir ki, aviaşirkət uçuşlara iyulun 27-dən etibarən başlayacaq. Qeyd edək ki, "Jukovski" hava limanı bu il 1,5 milyon sərnişinə xidmət göstərməyi proqnozlaşdırıb.

## İyunda Ceyhan limanından 8 milyon 126 min 315 ton xam neft ixrac edilib



SOCAR 2017-ci ilin iyun ayında Novorossiysk limanından 159 min 826 ton, Supsa limanından 176 min 139 ton, Ceyhan limanından 1 milyon 429 min 248 ton xam neft ixrac edib. Bu barədə AZƏRTAC-a SOCAR-dan bildirilib. Ümumilikdə yanvar-iyun ayları ərzində Novorossiysk limanından 733 min 664 ton, Supsa limanından 1 milyon 315 min 184 ton, Ceyhan limanından 8 milyon 126 min 315 ton xam neft ixrac edilib. SOCAR tərəfindən ixrac olunmuş xam neftin göstəriciləri həm Azərbaycan dövlətinə, həm də şirkətin özünəməxsus xam neft həcmlərini əks etdirir.

## Sərnişin və sürət qatarlarının baza tarifində 1,2 əmsalı tətbiq ediləcək



Sərnişin və sürət qatarlarının baza tarifində 1,2 əmsalı tətbiq ediləcək. "Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sərnişinlərə göstərilən xidmət səviyyəsini yaxşılaşdırmaq, çevik tarif tənzimlənməsini təmin etmək məqsədilə, gediş haqlarının tənzimlənməsi üçün iyulun 15-dən etibarən ölkədaxili sərnişin və sürət qatarlarında baza tarifinə kupe və plaskart tipli vaqonlarda aşağı yerlərə 1,2 əmsalı tətbiq ediləcək.

# Ekologiya və ətraf mühitin mühafizəsi



***Bizi bitkilər, heyvanlar, su, hava və digərləri əhatə edir. Bütün bunlar Allahın insana bəxş etdiyi ən dəyərli nemətlərdir. Əgər bu nemətlərin hansısa birinə ziyan dəysə, o zaman hər kəs bundan ziyan görə bilər. Biz də təbiətin bir parçasıyıq. Belə olan halda, ətraf mühiti qorumaq, məhz biz insanların üzərinə düşən ən böyük vəzifədir. Ümumiyyətlə, insan həyatı ekologiya və ətraf mühitlə sıx bağlıdır. Ekologiya və ətraf mühiti mühafizə etməklə həm sağlamlığımızın qeydinə qalır, həm də bu sahədəki fəaliyyətimizi aktivləşdiririk.***

Açıqlanan statistikalara görə, son dövrlər dünyada şikəst doğulan uşaqların sayı artıb. Bu da ekologiya və ətraf mühitin sağlam olmamasından irəli gəlir. Əgər insan özünü xilas etmək, gələcək nəsilləri qorumaq istəyirsə, ilk növbədə, təbiətə qayğı göstərməlidir. Odur ki, övladlarımız kənddə yox, şəhərdə böyümələrinə rəğmən, kiçik yaşlarından təbiəti sevib-qorumağı aşılamalıyıq. Uşaqlarımız şəhərdə böyüdükləri üçün canlı təbiətlə daim təmasda ola bilmirlər. Buna baxmayaraq, uşaqlarımızın qəlbində ekoloji mədəniyyət formalaşdırmalıyıq. Bu tərbiyə yalnız ailələrdə deyil, həm də məktəblərdə müəllimlər tərəfindən aparılmalıdır. Tələbələrin ətraf mühit sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəslin ekoloji maarifləndirilməsi və ictimaiyyətin ətraf mühitin birgə mühafizəsinə cəlb olunması məqsədi ilə ali təhsil müəssisələrinin tələbə və müəllim kollektivləri ilə görüşlər keçirilib. Bu görüşlərdə dövlətin ekologiya sahəsində həyata keçirdiyi uğurlu siyasət və bu istiqamətdə gənc nəslin fəal rolundan danışılıb. Ətraf mühit sahəsində bilik və bacarıqlarının artırılmasının vacib olduğu bildirilib.

Gələcəyimiz olan uşaqları kifayət qədər maarifləndirsək, onlar təbiəti sevib, qeydinə qalarlar.

Azərbaycan zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan bir dövlətdir. Ölkəmiz müstəqillik əldə etdikdən və bazar iqtisadiyyatı yolunu seçdikdən sonra, Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasət yeni vüsət alıb və formalaşmağa başlayıb. Respublikamızda bu dövrdə ekoloji siyasətə dair ilk sənəd kimi "Dayanıqlı inkişaf" prinsiplərinə əsaslanan "Azərbaycan Respublikasının ekoloji Konsepsiyası"nı qeyd etmək olar.

Ətraf mühitin mühafizəsi dövlətin güclü olmasının göstəricisidir. Ətraf mühitin sağlam olması cəmiyyətin sağlam düşüncəli olması deməkdir. Azərbaycanın təbiəti gözəl olarsa, adını daha qabaqcıl ölkələr siyahısında görə bilərik. Təbiətimizin təmizliyinə, gözəl olmasına əlimizdən gələni etsək, turistlərin sayı da çox olar. Çünki insanlar havası, suyu və ümumilikdə ətraf mühiti təmiz olan ölkələrə səfər edirlər.

Ölkəmizdə uzun illərdən bəri həllini gözləyən bir sıra ekoloji problemlər də var: su hövzələrinin, o cümlədən Xəzər dənizinin məişət və sənaye sularının tullantılar ilə çirkləndirilməsi, Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə əlaqədar vurulan ziyanlar, atmosfer qatına zərərli qazların yol verilən normadan artıq atılması, meşələrdəki ağacların qırılması, kənd təsərrüfatında zərərvericilərə qarşı gübrələrin düzgün istifadə edilməməsi və digər hallar xoşagələn deyil. Belə hadisələrin baş verməsi insan həyatı üçün də çox təhlükəlidir. Bu cür hallar, hətta xəstəliklərə gətirib çıxara bilir.

Azərbaycan ərazisi həm subtropik, həm də mülayim quraşqdadır. Amma ərazimizin böyük hissəsi subtropik qurşaqda yerləşir. Su ehtiyatlarımız da çox deyil. Bəzi quraqlıq sahələrdə, Abşeron kimi ərazilərdə, Kür-Araz ovalığında, Ceyrançöldə yarımsəhra iqliminə aid olan sahələrimiz olduğuna görə, səhralaşma qorxusu günbəgün artır. Səbəb isə, intensiv olaraq, bu ərazilərin mənimsənilməsi, həm də su ehtiyatlarından, suvarma sistemlərindən müasir tələbata uyğun istifadə olunmamasıdır. Vaxtilə Kür-Araz ovalığında su ehtiyatı az olduğuna görə şoranlaşma, torpaqların dövriyyədən çıxması halları müşahidə olunmurdu. Amma Mingəçevir Su-Elektrik Stansiyası tikildikdən sonra böyük su kanallarımız suvarma sistemini artırdı.

Dünyanın əksər ölkələrində yaranmış ekoloji problemlərin həll edilməsi üçün bir neçə yoldan istifadə edilir. Belə ki, bu problemi aradan qaldırmaq üçün bir neçə yollara əl atılmalıdır. Müxtəlif təmizləyici qurğular tikilməli və ya zibillər məhv edilməlidir. Dünyanın ayrı-ayrı regionlarında təbiəti mühafizə sahəsində BMT tərəfindən də xeyli işlər görülür. Bu sahədə görülən işlərin ən mühümü xüsusi qorunan təbii ərazilərdir. Ətraf mühitin çirklənməsi və təbii ehtiyatların tükənməsidir. Ona görə də, insan cəmiyyəti qarşısında ekoloji böhranın aradan qaldırılması, təbiətin qorunması və təbii sərvətlərdən səmərəli istifadənin həyata keçirilməsi vəzifəsi durur.

Azərbaycanda da bu sahədə xeyli işlər görülüb. Meşələri qorumaq məqsədi ilə, meşə haqqında dövlət qanununa əməl edilməli, qırılmış meşələrin bərpası, meşə yanğınlarına qarşı mübarizəni gücləndirməli, "Qırmızı kitab"a daxil edilmiş bitkiləri qorumalıyıq.

Bu problemlərin həlli istiqamətində son illər Prezident İlham Əliyev tərəfindən müvafiq addımlar atılır. Ölkə başçısı sənədlər imzalayıb. Prezidentin səyləri nəticəsində ekologiya və ətraf mühit daha da yaxşı mühafizə olunur. Canlılar aləmi aidiyyatı qurumlar və insanlar tərəfindən qorunur. Canlı aləmin günü-gündən yaxşılaşmasının bu gün də müsbət nəticəsini görürük.

2006-cı ildə Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nı təsdiq etməsi ilə ekoloji tədbirlərin sistemli şəkildə həyata keçirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Bu kompleks tədbirlər planında Bakı buxtasının, Bibiheybət zonasının, Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətrafının, Abşeron yarımadasının göllərinin, neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və digər istehsal tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, bərk məişət tullantılarının idarə olunması sxeminə uyğun Bakı və Sumqayıt şəhərlərində formalaşan tullantıların idarə olunmasının təkmilləşdirilməsi və s. məsələlərin həlli mexanizmləri dəqiqliklə göstərilib. Bakı şəhərinin və Abşeron yarımadasındakı yaşayış massivlərinin kanalizasiyalaşdırılması, mövcud təmizləyici qurğuların yenidən qurulması və yeni təmizləyici qurğuların tikilməsi istiqamətində tədbirlər görülüb. 2009-cu ilin sonunda Hövsan Aerasiya Stansiyasının istifadəyə verilməsi və buxtaya axıdılan kanalizasiya sularının qarşısı alınaraq, aerasiya stansiyasına yönəldilməsi Bakı buxtasının tədricən təmizlənməsinə müsbət təsir edib. Eyni zamanda, ölkə başçısı tərəfindən 2010-cu ilin "Ekologiya İli"nin elan edilməsi isə respublikada ekoloji durumun yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlardandır.

Alimlər ətraf mühiti təbii mühit və süni mühit olaraq iki hissəyə ayırıblar. İnsanların həmişə asılı olduqları mühit təbiidir. Süni mühit isə cəmiyyətin inkişafı ilə əlaqədar insanların fəaliyyəti nəticəsində yaradılıb.

Yaşadığımız dünya, bizi əhatə edən maddi aləm son dərəcə gözəl, zəngin və rəngarəngdir. Biz zəngin və füsunkar bitkilər aləmin, vəhşi heyvanlardan tutmuş ən xırda həşəratlara qədər saysız-hesabsız canlılar əhatəsindəyik. Biz təbiətin kiçik bir parçasıyıq. Bizim yaşayışımız da, sağlamlığımız da onunla bağlıdır. Meşələr bizim sərvətimiz, var-dövlətimizdir. Yaşıllığı zənginləşdirmək hamının borcudur. Biz bu təbiətin bir parçasıyıq, o, bizim hamımızın evidir.

"Ekologiya İli" çərçivəsində, eləcə də, sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlətimizin başçısının özünün bu kampaniyalarda iştirakı ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi sayıla bilər. Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən "Həmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun prezidenti, UNESCO-nun və İSESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində ölkəmizdə hektarlarla sahə yaşıllaşdırılıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci il iyulun 12-dən fəaliyyətə başlayan İDEA - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Kampaniyası çərçivəsində ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlər Azərbaycanda ekoloji problemlərə verilən önəmin göstəricisidir.

Ümummilli Lider Heydər Əliyev hər zaman insanın əsas vəzifəsi hesab etdiyi yaşıllaşdırma işini ön plana çəkirdi. İndi kölgəsində həvəslə dincəldiyimiz ağacların əksəriyyəti, məhz Onun hakimiyyəti illərində əkilib-bəcərilib.

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir.

Ölkənin sosial-iqtisadi həyatının bütün sahələrinin inkişafı ilə yanaşı, ətraf mühitin sağlamlaşdırılması məsələlərinə də göstərilən gündəlik qayğının, həyata keçirilən ardıcıl tədbirlərin nəticəsində ölkəmizdə ekoloji durum əhəmiyyətli dərəcədə yaxşılaşıb. Keçmişdən miras qalmış ekoloji problemlərin aradan qaldırılması və səmərəli idarəetmə sisteminin yaradılması da Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun artmasına təkan verib.

Keçən əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq, əldə olunan sosial-iqtisadi inkişaf, dünya iqtisadiyyatına inteqrasiya sahəsində qazanılan nailiyyətlər göz qabağındadır. Son illərdə əldə olunmuş nailiyyətlər dövlətin iqtisadi əsaslarını daha da möhkəmləndirmiş, ekoloji təhlükəsizliyin təmin olunmasına zəmin formalaşdırmış, daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişlənmişdir.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi və həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi bu gün də Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir.

Bundan əlavə, əhali arasında ekoloji təbliğatın gücləndirilməsi mühüm məsələlərdəndir. Son illər Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul olunmuş ətraf mühitlə bağlı bir sıra qanunlar bu sahədə mövcud olan boşluqların doldurulması üçün böyük imkanlar açır.

Bu gün ölkəmizdə ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsi məsələlərinə daha çox diqqət yetirilir. Milli parkların yaradılması işi uğurla davam etdirilir, təbii ehtiyatların qorunması üçün uzunmüddətli dövlət planları nəzərdə tutulub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il 5 iyun - Dünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində müxtəlif tədbirlər həyata keçirir.

Canlılar aləmini və ekologiyanı qorumaq təkcə dövlət qurumlarının üzərinə düşən vəzifə deyil. Hər bir insan ekologiya və ətraf mühitin mühafizəsi üçün əlindən gələni etməlidir. Təbiətimizi qoruyaq ki, səhhətimizdəki problemləri təmiz hava və bitkilərin enerjisi ilə aradan qaldıra bilək. Gəlin, sağlam dünyanın sağlam mühitində yaşayaq. Bu gözəlliyi qoruyaq, sevək, ata-babalarımızdan bizə yadigar qalan təbiətimizin qədrini bilək.

***Ceyran Əsgərova***
***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün***

TƏRS BAXIŞ

# AMİP-in qlobal problemi...

*Partiyada yaranmış fikir ayrılıqları sədrlik probleminin həll olunmasını əngəlləyir*

**Müxalifət düşərgəsində gizlin işlərlə məşğul olub, reallıqda sakit görünən partiyalar sırasında Azərbaycan Milli İstiqlal Partiyası da var. Xüsusilə, Etibar Məmmədovun sədrlik postundan getməsindən sonra, partiyaya rəhbərlik etmək oradakı funksionerlər arasında ciddi, hətta qlobal bir problemə çevrilib. E.Məmmədovdan sonra partiyaya sədrlik etmiş, sonradan isə sədrlik postundan imtina etmiş Yusif Bağırzadə faktorundan sonra, necə deyərlər, bu məsələlər daha da şişməyə başlayıb.**

### Elə AMİP üzvləri də var ki, onlar radikal siyasət yürütməyə meyilli olduqlarını gizlətmirlər

Bir müddət öncə AMİP-in sədrliyinə iddialı olan baş katibi Arzuxan Əlizadə mətbuata açıqlamasında etiraf etmişdi ki, partiyadaxili məsələlərdə fikir müxtəlifliyi var. Məsələn, AMİP-də təmsil olunan səlahiyyətlilərin bir qisminin loyal siyasət yürütmələri, yaxud da sivil müxalifətçilik yolu sərgiləyərək, radikalizmi rədd etmələri sirr deyil. Lakin elə AMİP üzvləri də var ki, onlar radikal siyasət yürütməyə meyilli olduqlarını gizlətmirlər. Bu isə, o deməkdir ki, hazırda partiyada elə şəxslər var ki, onlar destruktiv fəaliyyətə üstünlük verirlər. Halbuki Y.Bağırzadənin sədrliyi dövründə bu amil aradan qaldırılmışdı.

### Xüsusilə, seçkilərdən öncə belə bir situasiyanın yaranması digər pərdəarxası motivlərin də olduğunu gizlətmir



Başqa tərəfdən, haçalanmış fikirlər qurultayın keçirilməsini və sədrin kim olması məsələsini də gecikdirir. Hətta onu da ehtimal etmək mümkündür ki, bu gün ortada razılaşmanın olmaması AMİP-i daha kritik tərəfə sürükləyir. Hətta belə qənaətə gəlməyə əsas var ki, AMİP-də aparılacaq müzakirələr, o cümlədən, növbəti qurultayın keçirilməsi, yeni sədrin müəyyənləşdirilməsi heç də sakit müstəvidə keçməyəcək.

### Ən azından, iki payız geridə qalıb, üçüncü payızda nəyisə dəyişmək mümkün olacaqmı?

Bu arada, AMİP sədrliyinə namizəd olacağını gizlətməyən təşkilatın mərkəzi şurasının üzvü Əli Orucovun mövzu ətrafındakı fikirləri diqqət çəkir. O bildirib ki, qurultayın keçirilməsi və sədrin seçilməsindən payızda danışmaq olar. "Güman ki, payızda qurultay məsələsinə baxmaq olar. Amma hələlik, konkret bir təşəbbüs də yoxdur"- deyə qeyd edən Ə.Orucova görə, qurultayın vaxtı müəyyənləşəndə, namizədlər də öz iddialarını ortaya qoyacaqlar. Maraqlıdır, iki ildir sədrsiz qalan partiya bu müddət ərzində nəyə görə qurultay keçirməyib? Ən azından, iki payız geridə qalıb, üçüncü payızda nəyisə dəyişmək mümkün olacaqmı?

### Əli Orucov: "Qeyri-müəyyənlikdir"

Əlbəttə, qurultay keçirilsə də, keçirilməsə də sədr postu uğrunda maraqları olanlar var və onlar elə qurultaya qədər haqq-hesabı "çürütməkdə" qərarlıdırlar. Çünki qurultay baş tutarsa, həmin vaxt sədrin rəsmi şəkildə kim olaraq seçilməsi məsələsi daha qəliz olacaq. Bu səbəbdən, onlar indidən qollarını çırmayıblar. Düzdür, adıçəkilən AMİP rəsmisi bunları etiraf etməsə də, müəyyən fikir bildirməsi partiya daxilində yekdil rəyin olmamasına vurulan eyham, ya da işarədir: "...İndi isə qeyri-müəyyənlikdir. Ona görə də, hansısa namizəd məlum vaxta qədər kampaniya aparmalı, imza toplamalıdır..."

Beləliklə, iki ildir ki, sədr portfeli olmayan AMİP-də vəziyyətin gərginliyi davam edir. Məhz hadisələrin yuxarıda qeyd edilən məcrada davam etməsi də göstərir ki, adıçəkilən siyasi təşkilatda sədrlik problemi hələ uzun müddət öz həllini tapa bilməyəcək.

**R.RƏSULOV**

# Müxalifət hələ də qış yuxusundan ayılmayıb

*Tahir Kərimli: "Müxalifət təmsilçiləri ümid edirlər ki, xaricdəki qüvvələr yenidən onları məcbur edə bilər ki, birləşsinlər"*

***- Tahir bəy, AXP sədri Pənah Hüseyn və ADP sədri Sərdar Cəlaloğlu müxalifətin birliyinə nail olmaq üçün yeni blokun yaradılmasının zəruriliyini bildirir və bu istiqamətdə partiyalara mesajlar ünvanlayırlar. Sizcə, indiki şəraitdə yeni qurumun yaradılması nə dərəcədə mümkündür?***

- Müxalifət düşərgəsində formal qurum yaradıla bilər. Amma yaradılan qurum faktiki gücə çevrilməyəcək. Əgər müxalifət düşərgəsində təmsil olunan həmin partiyaların arxasında heç bir sosial baza yoxdursa, onda həmin yaradılan birlik nəyə nail olacaq? Əlbəttə, heç nəyə nail olmayacaqdır. Bu baxımdan, sözügedən həmin düşərgədə hər hansı blokların və qurumların yaradılması əvvəlcədən məhvə məhkumdur. Sadəcə olaraq, müxalifət partiya sədrləri bu cür birliklər yaratmaqla özləri üçün bir məşğuliyyət tapa bilərlər. Bir sözlə, bu cür ideyaların reallaşması formal addan başqa bir şey olmayacaq. Çünki artıq müxalifət düşərgəsini təmsil edən partiyalar pərakəndə və ideologiyası olmayan təşkilatlardır. Ümumiyyətlə, nəyə əsaslanır müxalifət hərəkatı? Liderin, təşkilatın və sosial bazanın olmasına. İndi baxaq görək, müxalifət düşərgəsində vahid bir lider varmı ki, o, vahid birliyin başında dursun. Əlbəttə ki, yoxdur. Digər tərəfdən də, müxalifətdə hansısa bir təşkilat partiyaları başına yığa bilərmi? Birmənal şəkildə, demək olar ki, müxalifət düşərgəsində belə bir təşkilat yoxdur. Bunun da səbəbi müxalif liderlərinin bir-birini qəbul etməmələridir.



***- Dəfələrlə müəyyən xarici qüvvələr AXCP və Müsavatı bir araya gətirməyə çalışıblar. Amma fakt burdur ki, bu cəhdlər uğursuzluqla nəticələnib. Necə düşünürsünüz, belə bir fakt ortada olduğu halda, Sərdar Cəlaloğlu və Pənah Hüseyn bu əzəli rəqibləri bir araya gətirə biləcəklərmi?***

- İnandırıcı görünmür ki, AXCP və Müsavat bir araya gələ bilsinlər. Sonuncu dəfə "Milli Şura" yaradılan zaman AXCP və Müsavat partiyalarının bir araya gəlmələrini görmüşdük. Lakin onlar uduzandan sonra dərhal bir-birindən ayrıldılar. Bundan sonra bunların bir yerdə olmaları, çətin ki, mümkün olsun. Demək olar ki, bu gün müxalifət liderləri ana müxalifət olmaq uğrunda bir-birləri ilə bəhsə giriblər. İddialar səbəbindən bu günə qədər həmin liderlər hər hansı bir məsələ ilə bağlı ortaq məxrəcə gələ bilməyiblər. Bu baxımdan da, müxalifətin bütövləşmə şanslarını mən görmürəm.

***- Müxalifətdaxili qarşıdurmalara və intriqalara əsaslanaraq, demək olarmı ki, prezident seçkilərinə qədər bəzi müxalifət partiyaları fəaliyyətlərini dayandıracaqlar?***

- Müxalifətdə olan təşkilatların çoxu formal addan ibarətdir. Faktiki fəaliyyət göstərmirlər. Ona görə də, prezident seçkilərinə qədər bir araya gələrək, söhbətlər apara bilərlər. Hətta formal təşkilatlar da yarada bilərlər. Amma bunun müvəffəqiyyəti sıfıra bərabərdir. Biz hər dəfə görmüşük ki, ölkədə keçirilən hər hansı seçkilərdən sonra müxalifət qış yuxusuna gedir. Müxalifət təmsilçiləri ümid edirlər ki, xaricdəki qüvvələr yenidən onları məcbur edə bilərlər ki, birləşsinlər. Ümumiyyətlə, qeyri-səmimi qüvvələrin birliyi, hər zaman olduğu kimi, bu dəfə də heç bir nəticə verməyəcəkdir.

**GÜLYANƏ**

# Müxalifətin qara günləri başlayır

*ADP, Müsavat və AXCP kimi partiyalar fəaliyyətlərini dayandıra bilər*

Bir qədər əvvəl bəzi siyasi şərhçilər "müxalifət partiyalarının qara günləri hələ qabaqdadır" yazanda, müxalif liderlərin təsiri altında olan qəzet və saytlar həmin şərhçiləri tənqid edir, onları müxalifətin inteqrasiyasına mane olmaqda günahlandırırdılar. Ancaq "od olmasa, tüstü çıxmaz" məsəli boş yerə deyilməyib. Siyasi şərhçilər ilkin işartılara əsaslanaraq, müxalifətin yaxın perspektiv üçün durumunun ağır olacağını proqnozlaşdırmışlar. Hazırda Müsavat və AXCP-dən kütləvi istefalar baş verir, AMİP, ADP, "Ümid" kimi partiya sədrlərinin isə digərləri ilə əvəzlənməsi prosesi yaşanmaqdadır. Müxalif qəzet və saytlar haqlı olaraq susmağa üstünlük verirlər. Bu, onların mövcud reallıqla barışdıqlarını göstərir. Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, müxalifətin dağılması real görünür, çünki partiya sədrləri müstəqil deyillər, hansısa xarici fondların təmsilçilərindən asılıdırlar: "Ümumiyyətlə, bu gün insanlar nəyə inanırlar: ideologiyaya, təşkilata, yoxsa liderə? Amma müxalifətdə bu gün bu sadalananların heç biri yoxdur. Belə olan halda da, müxalif partiyalarda vaxtaşırı istefalar baş verir. Bu gün, demək olar ki, müxalifət partiyaları təşkilat kimi aşınıblar, yəni zəifləyərək, lazımsız quruma çevriliblər". T.Kərimlinin sözlərinə görə, sıravi üzvlər lazımsız quruma çevrilən təşkilatlarda qalmaq istəmirlər: "Belə olan halda da, müxalifət düşərgəsində olan şəxslər istefa verərək, oradan uzaqlaşırlar. Çünki bu cür təşkilatla, liderlə və ideologiya ilə ortaq olmaq və talelərini bağlamaq istəmirlər.

Müxalifət partiya sədrləri ancaq özlərinin şəxsi ambisiyalarını düşünürlər. Özlərini bir lider kimi apara bilmirlər. Ona görə də, belə bir vəziyyət yaranır. Eyni zamanda, müxalifət liderlərinin yanlış siyasətlərindən nəticə çıxarmaq istəməmələrinin əsas səbəbi də, o postu daimi tutmaq imkanını hər zaman götür-qoy etmələridir. Yəni düşüncələri, nə olursa-olsun, təki bu post əldən çıxmasın. Bu baxımdan, onların əsas niyyətləri və fəaliyyətləri zəbt etdikləri sədrlik kreslolarını əldən verməməkdir".

### Arif Hacılının təşəbbüsü ələ almaq cəhdi iflasa uğrayır

Müxalifət partiyalarının ölkədə gedən ictimai-siyasi proseslərdən tamamilə kənarda qalmalarının və 24 ildən artıq siyasi proseslərdə olmalarına baxmayaraq hələ də formalaşa bilməmələrinin başlıca səbəbi liderlərin səhv siyasət yürütmələri, eləcə də, müstəqil olmamalarıdır. Xarici qüvvələr müxalifəti üzləşdikləri süstlükdən, ağır durumdan çıxarmağa cəhdlər göstərsələr də nəticə əldə edə bilməyiblər. Çünki partiyalararası düşmənçilik münasibətləri, o dərəcədə dərin olub ki, təqdim olunan resept və maliyyə yardımları bu ağır xəstəliyin müalicəsinə yardım edə bilməyib. Bəzi partiya sədrləri uğursuz birlik modelinin baş tutmamasına görə, bir-birini günahlandırıb, xarici qüvvələrin gözündən salmağa calışıblar. Dəfələrə ADP sədri Sərdar Cəlaloğlu AXCP sədri Əli Kərimlini müxalifətin birliyini pozmaqda günahlandırıb. Cəlaloğlu əlində Ə.Kərimlinin müxalifət partiyalarını dağıtmaq və bununla da, onların sosial bazasına nail olmaq üçün sənədlərə malik olduğunu bildirib. S.Cəlaloğlu Müsavat başqanı A.Hacılının bostanına da daş atmağı unutmayıb. ADP sədri bildirib ki, Müsavat partiyasının siyasi partiyalara qarşı apardığı "qara piar" kampaniyası bu partiyanın, hər zaman olduğu kimi, seçkiqabağı taktikasının tərkib hissəsidir: "Müsavat başqanı Arif Hacılının burada özünəməxsus məqsədi var. Məqsəd də mümkün qədər Müsavatı müxalifətdən kənarda saxlamaq, onu müxalifətüstü bir güc kimi təqdim eləmək, yeganə, həqiqi, saf, prinsipial, radikal müxalifət obrazı yaratmaq və bununla da, narazı elektoratı, məhz Müsavat partiyasını dəstəkləməyə cəlb etməkdir".

Bir sözlə, bütün hallarda proseslər müxalifət partiya sədrlərinin ziyanına işləyir. Xüsusilə də, Müsavat, AXCP, "Ümid" və ADP-nin vəziyyəti ağırdır. Bu baxımdan, yaxın vaxtlarda sözügedən partiyaların parçalanacağını və ya hansısa partiyalara transfer olunacaqlarını proqnozlaşdırmaq olar.

**İ.ƏLİYEV**

# Azərbaycanda dövlətçilik ənənələri

***Siyasi-hüquqi ədəbiyyatda "Dövlətçilik" anlayışı bir neçə mənada işlənir:***

1. İnkişafda olan dövlət;
2. Dövlətin sosiuma münasibəti;
3. "Dövlət quruluşu", "cəmiyyətin siyasi təşkili".

Rusiyalı tədqiqatçı R.A.Lubski "dövlətçilik" dedikdə, dövlət-hüquqi strukturların və təsisatların, milli-dövlət ideyasının və onların reallaşmasının sosial praktikasının da daxil olduğu cəmiyyətin dövlət-təşkilati formasını nəzərdə tutur.

Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir, xalqımızın siyasi varlığında dövlətçilik mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda dövlətçilik ənənələrinin tarixi 5 min il əvvəllərə gedib çıxır. Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Güclü xarici siyasət yürüdən qədim Azərbaycan dövlətləri regionda öz qüdrətilə fərqlənən siyasi qurum kimi çıxış edirdilər. Tarixi Azərbaycan torpaqlarında yaranan dövlətçilik ənənələri inkişaf etdi, daha da yüksəldi, yeni-yeni dövlətlərin yaranmasına səbəb oldu. Bu dövlətlər vahid xalqın-Azərbaycan xalqının təşəkkülü prosesində həlledici rol oynadılar. Tarix elmləri doktoru Şahin Fazil bildirmişdir ki, Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır: "Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq, Urmiya hövzəsində yaranıb. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanda Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə, Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı. IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycanda yeni siyasi dirçəliş başlandı: islam dininin yayılmış olduğu Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri yarandı. Müstəqil dövlətlərin yaranması nəticəsində siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verməkdə idi. Azərbaycan tarixinin intibah dövrü başlanırdı.

600 ilə qədər davam edən Sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin (Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimliyi) yaranması, islam dininin bütün ölkə ərazisində əsas təkallahlı dinə çevrilməsi Azərbaycan xalqının etnik təkamülündə, vahid dilin və mədəniyyətin təşəkkülündə mühüm rol oynadı. İslam dini, eyni zamanda, Azərbaycanı idarə edən ayrı-ayrı feodal sülalələrinin tez-tez birbirini əvəz etdiyi bir tarixi şəraitdə bütün Azərbaycan əhalisinin - həm xalqımızın təşəkkülündə başlıca rol oynayan müxtəlif türk tayfalarının, həm də onlarla qaynayıb-qarışmaqda olan qeyri-türk etnoslarının yadelli qəsbkarlara qarşı vahid qüvvə halında birləşməsində də mütərəqqi rol oynadı.

Ərəb xilafətinin tənəzzülündən sonra - IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə, bütün Yaxın və Orta Şərqdə türk-islam imperiyalarının rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin, bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular.

XV-XVIII əsrlərdə və bundan sonrakı dövrdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacar imperiyaları, bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkəmizin və xalqımızın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında da mühüm rol oynamaqla yanaşı, Avropa-Şərq münasibətlərində də çox fəal iştirak edirdilər".

"Azərbaycan" adı bir tərəfdən bu ərazidə eradan çox-çox əvvəl yaşayan əhalinin əksəriyyətinin odla bağlılığını göstərir. "Azər"-od, atəş deməkdir. Əbədi yanar od qədim zamanlardan Azərbaycanın simvolu hesab olunub. Bu baxımdan da, Azərbaycan dünyada "Odlar Yurdu" kimi tanınır. Digər tərəfdən isə bu ad Azərbaycan ərazisində qədim zamanlardan yaşayan türksoylu tayfaların adından götürülmüşdür."Ər kişi", "ər oğlu", "od qoruyan" mənasını verən "Azərbaycan" bu ərazidə yaşayan qədim türkdilli qəbilənin adından əmələ gəlib.

Azərbaycan ərazisində arxeoloqlar tərəfindən Qarabağda Azıx mağarasında aparılan qazıntılar Azərbaycanda 2 milyon il əvvəl insan sivilizasiyasının izlərini aşkar edib. Aşel dövründən olan, Azıxantrop kimi tanınan insan çənəsi Azərbaycan ərazisində erkən insan məskunlaşmasının olduğunu sübut edir. Məhz bu tapıntı Azərbaycanı Avropada erkən insanın yaşayış xəritəsinə daxil etmişdir.

Qədim daş kitabələr, əlyazmalar, əsrlərin dərinliklərindən gəlib, yadigar qalan maddi abidələr bizə çox şeyləri sübut edir. Azərbaycanı tanımaq, onun haqqında həqiqəti bilmək üçün bu abidələri dərin və hərtərəfli öyrənmək lazımdır.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz Ulu Öndər Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə fikirlərini paylaşan "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu demişdir:" Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi yenidən bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir.Heydər Əliyevin adını dövlətçilik şüuru ilə identifikasiya etmək olar. Ötən əsrin 90-cı illərində 5 min illik yaşı olan Azərbaycan dövləti parçalanmış vəziyyətdə idi. Belə olan halda, xalqın güclü idarəetmə qabiliyyətinə malik liderə ehtiyacı vardı. O, hakimiyyətə gələrək, pərakəndə halda olan dövləti inkişaf edən hüquq sisteminə çevirməyə müvəffəq oldu. Formal olaraq, müstəqil olan ölkədə dövlətçilik ənənələrini formalaşdırdı.

Ulu Öndər özünü dövlətlə identifikasiya edəcək fərdlərin şüurunda inqilab yaratdı. Məlumdur ki, 90-cı illərin əvvəllərində ölkədə etnik, regional, sosial-ideoloji və separatçılığa söykənən tendensiya hökm sürürdü. Azərbaycan cəmiyyətinin daxili və mürəkkəb mikrostrukturunun təbəqələri heç də müstəqil dövləti milli sərvət kimi qəbul etmirdilər. Bu düşüncəni dəyişmək lazım idi. Heydər Əliyev bunu təmin etməyi bacardı. Bu gün Cənab Prezident İlham Əliyev Ulu Öndər siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir".

Məhz Ümummilli Lider Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qopunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "İkili standartların dünya nizamı və müasir Azərbaycan" kitabında Azərbaycanda gedən proseslərin geniş siyasi-sosioloji və elmi-fəlsəfi şərhini verir. Akademik Ramiz Mehdiyev bu kitabında da Azərbaycanda dövlətçilik ənənələrinin qorunmasının əsaslarını ətraflı şərh edir və müasir müstəqil Azərbaycanın möhkəm təməlini qoyan Ümummilli Lider Heydər Əliyev kursunun bu sahədəki rolunu xüsusi vurğulayır.

Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub və onun təkmilləşdirilməsi üçün etibarlı zəmin hazırlanıb.Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarının birində dövlət başçısı İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir"

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 5 iyul


## Çirklənmiş hava depressiya yaradır



Uzun müddət çirklənmiş havanın təsirinə məruz qalan beyin zədələnir. Nəticədə insan depressiyaya düşür, yaddaş və idrak prosesi ilə bağlı problemləri yaranır. Ohayo Universitetinin doktorantı Laura Fonken bildirib ki, çirklənmiş havanın beyinə uzun müddət təsir göstərməsi sağlamlıq durumunda problemlər yaradır. Tədqiqat sənaye zonalarının və nəqliyyatın inkişaf etdiyi şəhərlərdə yaşayan insanlar üçün xüsusilə böyük əhəmiyyət daşıyır.

## Baş ağrıları hansı fəsadlara səbəb olur?



Şübhəsiz, hər bir adam öz həyatında baş ağrısı problemi ilə qarşılaşır. Baş ağrısı əqli və ya fiziki gərginlikdən tutmuş bəzi dərman preparatlarının qəbulunadək bir sıra səbəblər üzündən ola bilər. İlkin və təkrar baş ağrılarını bir-birindən fərqləndirirlər. İlkin baş ağrıları müstəqil problemdir, təkrar baş ağrılarını isə hər hansı nevroloji xəstəliklər və ya sistem xəstəlikləri doğurur. İkinci halda baş ağrısı patoloji prosesin kəskinləşdiyini göstərə və ciddi təhlükə yarada bilər.

Əksər hallarda baş ağrısı ilkin ağrı kateqoriyasına aid olur və insan sağlamlığı üçün ciddi təhlükə yaratmır. Bir müddətdən sonra bu ağrı öz-özünə keçir. Bununla belə güclü baş ağrısı gündəlik normal aktivliyi poza bilər, çox vaxt təkrarlanan ağrılar isə uşağın dərsə davamiyyətinə və inkişafına mənfi təsir göstərə bilər. Buna görə də güclü baş ağrısından şikayət meydana çıxdıqda simptomatik müalicə tətbiq etmək tələb olunur, bu zaman baş ağrıları asanlıqla keçib gedir. Qəflətən yaranan güclü ağrı hər hansı bir patologiyanın nəticəsi ola bilər. Ağrı yarandıqda müayinə olunmaq və problemin səbəbini aydınlaşdırmaq üçün həkimə müraciət etmək lazımdır. Bütövlükdə statistika baş ağrılarının yalnız bir faizinin həyat üçün təhlükə olduğunu göstərir.

## Quru balıq orqanizmi zəhərləyə bilər

Quru balıq dünyada geniş yayılmış ləzzətli təamlardan sayılsa da, onu çox yemək sağlamlıq üçün təhlükəlidir. Buna səbəb onun hazırlanmasında istifadə olunan konservantdır. Həmin konservantı quru balığın saxlama müddətini uzatmaq istəyən firmalar tətbiq edirlər. Hindistan mütəxəssisləri konservantın çox zəhərli olduğunu bildirirlər. Bu faktı məhsulun keyfiyyətini müəyyən edən laboratoriya tədqiqatları təsdiq edir. Ekspertlər quru balığın bir neçə növündə formalin aşkar etmişlər. Formalinin miqdarı çox olanda sağlamlığa mənfi təsir göstərir.

Əlbəttə, quru balıq istehsalçılarının heç də hamısı zəhərli kimyəvi preparatlardan istifadə etmir. İstənilən halda istehlakçı ehtiyatlı olmalı və sağlamlığına qayğı ilə yanaşmalıdır, çünki konservantsız və başqa kimyəvi maddələrsiz də quru balığı çox yemək ziyandır.

## Almaniya millisinin üzvü "Çelsi"də

"Roma"nın müdafiəçisi Antonio Rudiger karyerasını İngiltərədə davam etdirəcək. Apasport.az saytının xarici mətbuata istinadən məlumatına görə, Almaniya millisinin üzvü "Çelsi" ilə anlaşıb. FİFA Konfederasiyalar Kuboku-2017-nin qalibi olan 24 yaşlı futbolçu bu gün yeni komandası ilə rəsmi müqaviləyə qol çəkəcək. "Roma" bu transferdən 35 milyon avro gəlir əldə edəcək. Mərkəz müdafiəçisinin çıxışına görə, məbləğ 39 milyon avroya qədər yüksələ bilər. Qeyd edək ki, Antonio Rudiger "Roma"ya ötən il 7,6 milyon avroya "Ştutqart"dan keçmişdi.

## Formula-1 Azərbaycan Qran-Prisini 71 min 541 tamaşaçı izləyib



Bakının mərkəzi küçələrində keçirilmiş Formula-1 Azərbaycan Qran-Prisi üçün yarış məkanına 71 min 541 azarkeş gəlib. Formula-1-in ən yeni məkanı olan Bakı şəhər halqasında ötən il baş tutmuş ilk yarışla müqayisədə bu il keçirilmiş Azərbaycan Qran-Prisinə baxan tamaşaçıların sayı 30 faiz çox olub. Bundan əlavə, bu il yarışı yerində canlı izləmək üçün Bakıya xaricdən ötən ildəkindən iki dəfə çox avtoidman azarkeşi gəlib. Ümumilikdə 65 ölkədən gələn azarkeşlər Bakıda mövsümün ən gərgin və yaddaqalan yarışını izləyiblər. Xaricdən gələn Formula-1 həvəskarlarının sayı bütün tamaşaçıların üçdə birini təşkil edib.

Qran-Prini izləməyə gələn minlərlə azarkeşlə yanaşı, televiziya ekranları qarşısında əyləşən milyonlarla avtoidman həvəskarı uzun müddət yaddaşlarda qalacaq möhtəşəm yarışa tamaşa ediblər. "Red Bull Racing" komandasının pilotu Daniel Rikkiardo rəqiblərini üstələyərək 2017-ci il mövsümündə ilk qələbəsini qazanıb. "Mercedes AMG" komandasının pilotu Valtteri Bottas "uçan finlandiyalı" adına sahib olub. Belə ki, o, böyük ustalıq nümayiş etdirərək yarış ərzində ən arxa sıradan ön cərgəyədək gələrək finiş xəttindən əvvəl sonuncu saniyədə "Williams" komandasının pilotu Lens Strolu ötüb və podiumda ikinci pillədə qərarlaşıb. Yarışın son anlarında ikinci pilləni əldən verməsinə baxmayaraq, "Williams" komandasının kanadalı yeniyetmə sürücüsü Lens Stroll Formula-1-də debüt etdiyi ilk mövsümdə ən gənc yaşda podiuma çıxan pilot ünvanına yiyələnib.

Hər bir anı gərgin mübarizə ilə dolu yarışda çempionatın lider pilotlarının - Sebastian Fettel ilə Luis Hamiltonun bolidləri toqquşub. Böyük mübahisə doğuran bu hadisənin Azərbaycan Qran-Prisindən sonra uzun müddət müzakirə olunacağı gözlənilir. Yarış ərzində "Force India" komandasının pilotları arasında da toqquşma olub. Bundan başqa, "McLaren Honda" komandasının pilotu, ötən il Bakıda ilk dəfə keçirilmiş Formula-1 yarışının ulduz elçisi Fernando Alonso yarışı 9-cu yerdə bitirərək builki mövsümdə özünün və komandasının ilk xalını qazanıb. Azərbaycan Qran-Prisi üçün Bakıya toplaşmış avtoidman azarkeşləri üçün Dənizkənarı Milli Parkda möhtəşəm əyləncə proqramı təqdim olunub. Yarış həftəsonu günlərinin hər axşamında dünya ulduzları bulvar ərazisində salınmış böyük səhnəyə çıxaraq Formula-1 azarkeşlərinə yaddaqalan anlar yaşadıblar. Cümə günü axşam saatlarında türkiyəli məşhur müğənni Tarkan enerji ilə dolu performansı ilə səhnə ətrafına yığışmış avtoidman həvəskarlarına möhtəşəm gecə bəxş edib. Şənbə günü səhnəyə Nikol Şerzinger və "The Black Eyed Peas" qrupu çıxıb. Bazar günü isə dünya musiqisinin ən uğurlu sənətçilərindən biri, əfsanəvi musiqi ulduzu Meraya Keri möhtəşəm konserti ilə yarış və əyləncə həftəsonunun bağlanışını edib.

## Hakan Çalhanoğlu rəsmən "Milan"da!



"Milan" klubu Türkiyə milli komandasının futbolçusu Hakan Çalhanoğlunu transfer edib. Klubun rəsmi saytında yer alan xəbərə görə, İtaliyaya yollanaraq "Milan"da tibbi müayinədən keçən 23 yaşlı yarımmüdafiəçi dördillik müqaviləyə imza atıb.

İtaliya təmsilçisi futbolçunu heyətinə qatmaq üçün Hakan Çalhanoğlunun çıxış etdiyi "Bayer Leverkusen" klubuna 20 milyon avro ödəməyə razılaşıb. Ancaq Türkiyə millisinin üzvü çıxışına görə, Almaniya klubunda daha dörd milyon avro bonus qazana bilər. Oyunçunun yeni komandasında illik məvacibi 2,5 milyon avro olacaq. Qeyd edək ki, ötən mövsüm Bundesliqada 15 oyunda meydana çıxan yarımmüdafiəçi 6 qol vurub və 5 məhsuldar ötürmə verib.

## Məşhur futbolçunun oğlu PSJ ilə müqavilə imzalayıb




Məşhur futbolçu, 1995-ci ildə "Qızıl top"u qazanmış Corc Veanın oğlu Timati karyerasında ilk peşəkar müqaviləsini imzalayıb. AZƏRTAC xəbər verir ki, 17 yaşlı forvard 2014-cü ildən PSJ-nın aşağı yaş qrupundan ibarət komandasında çıxış edir. İlk peşəkar müqaviləsinə qol çəkən Timati Vea 2020-ci ilin yayınadək Paris klubunun şərəfini qoruyacaq. Qeyd edək ki, liberiyalı futbolçu son mövsüm UEFA Gənclər Liqasında meydana çıxdığı 4 oyunda 3 qol vurub.


**Baş redaktor:** Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:** Valeh Məhərrəmli, Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500